RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 105 (8984) CÜMƏ, 20 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## İşğaldan azad edilmiş ərazilərdə Türkiyə ilə birgə fəaliyyət həyata keçirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı Prezident İlham Əliyevin bir neçə gün əvvəl Türkiyəyə səfəri məmnunluqla xatırlandı və bu səfərin əlaqələrimizin inkişafında rolu qeyd edildi.

Prezident İlham Əliyev Vahid Kirişçini Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.

→ 2

## Belarusun Baş naziri Gəncədə törədilən erməni terroru qurbanlarının xatirəsini anıb



Belarusun Baş naziri Roman Qolovçenkonun başçılıq etdiyi nümayəndə heyəti Gəncə şəhərində səfərdədir.

Roman Qolovçenkonun başçılıq etdiyi nümayəndə heyəti Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin raket atəşinə tutduğu əraziyə baş çəkib.

Qonaqlar ermənilər tərəfindən Gəncə şəhərində törədilən terror hadisələri nəticəsində şəhid olan mülki şəxslərin ruhuna hörmət əlaməti olaraq əraziyə gül dəstələri düzüblər.

→ 5



# Azərbaycanın mövqeyi qətiyyətli, aydın və konstruktivdir

→ 7

## İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası ilə bağlı qanunvericilik təkmilləşdirilir



Mayın 19-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, iclasda 13 məsələ müzakirə olunub.

→ 2

## Yeni qanunların qəbulu ilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə daha da sərtləşdirilir

Azərbaycan Respublikasının Prezidenti narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Cinayət-Prosessual Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə, "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa və bir sıra digər qanunvericilik aktlarına dəyişikliklərin edilməsi barədə normativ hüquqi aktları imzalayıb. Dəyişikliklər 3 əsas istiqaməti əhatə edir.

→ 2

## İqtidar-müxalifət dialoquna növbəti töhfə

Ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqunun davamı olaraq mayın 19-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev ilə görüş keçirib.

Görüşdə şöbə müdiri Ədalət Vəliyev ölkəmizdə siyasi plüralizmin, fikir azadlığının təmin olunması, bu məqsədlə ictimai iştirakçılığın genişmiqyaslı tətbiqi və digər önəmli məsələlərlə bağlı görülən qanunvericilik və institusional tədbirlər çərçivəsində çoxpartiyalı sistemin inkişafına dövlət dəstəyinin təzahüründən söz açıb.

→ 5

## Azərbaycan beynəlxalq ticarətdə mühüm rol oynayır

### Litva Prezidentinin ölkəmizə səfəri strateji tərəfdaşlığın güclənməsinə yeni impuls verəcək

Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi müstəqil xarici siyasət həyata keçirən Azərbaycan dünyanın aparıcı güc mərkəzləri, əksər dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan sıx tərəfdaşlıq münasibətləri qurub.

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın dünyanın ayrı-ayrı qütblərində yerləşən çoxlu sayda dövlətlərlə mövcud olan əlaqələri daha da genişlənməkdədir. Rəsmi Bakı diplomatik əlaqələrdən başlamış dərin siyasi, iqtisadi-ticari, humanitar-mədəni münasibətlərə qədər bir çox ölkəylə əməkdaşlıq edir. Onlardan biri də Litva Respublikasıdır.

Azərbaycan ilə Litva uzun illərdir ki, strateji tərəfdaşdırlar. İki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq üzrə Bəyannamə əməkdaşlığın mahiyyətini əks etdirir. Mayın 18-də Litva Prezidenti Gitanas Nausedanın ölkəmizə səfəri, Prezident İlham Əliyevlə keçirilən təkbətək və geniş tərkibdə görüş, dövlət başçılarının mətbuata birgə bəyanatları, həmçinin Azərbaycan-Litva biznes-forumunda müzakirə edilən məsələlər movcud tərəfdaşlığı daha da gücləndirmək üçün real zəmin formalaşdırdı.

#### 27 illik uğurlu diplomatik münasibətlər

1991-ci ildə SSRİ-nin dağılması nəticəsində suverenlik əldə edən ölkələr müstəqil xarici siyasət yeritmək və ikitərəfli əlaqələri inkişaf etdirməyi əsas prioritetlərdən biri kimi qəbul etmişdilər. Elə Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri də Litvadır. 1991-ci il dekabrın 20-də müstəqilliyimizi tanıyan Litva ilə Azərbaycan arasında diplomatik münasibətlər 1995-ci ilin dekabr ayında qurulub.

→ 3

## YAP Gənclər Birliyi və Bakı Ali Neft Məktəbinin birgə təşkil etdiyi 1-ci Rəqəmsal İdeya Müsabiqəsinə yekun vurulub

Mayın 19-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş 1-ci Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib. Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin və Bakı Ali Neft Məktəbinin (BANM) birgə layihəsi olan müsabiqənin qalibləri mükafatlandırılıb.

Mərasimdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov vurğulayıb ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsində ölkəmizdə yüksək intellektli, vətənpərvər, bilikli və bacarıqlı gənc nəsil formalaşıb. Onun sözlərinə görə, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasında da böyük gənclər ordusu birləşib. Tahir Budaqov deyib: "Yeni Azərbaycan Partiyası hər zaman gənclərin inkişafına geniş imkanların yaradılmasını, bilik və bacarıqlı gənclərimizə dəstək verilməsini diqqət mərkəzində saxlayıb. Partiyamız bu məqsədlə davamlı olaraq müxtəlif səmərəli layihələr həyata keçirir. İnanıram ki, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan bu müsabiqə seçilmiş 120 nəfər üçün çox faydalı olacaq və gənclərimiz öz innovativ potensialını təkmilləşdirəcək. Hesab edirəm ki, bu tipli layihələrin gələcəkdə də davam etdirilməsi gənclərimizin intellektual inkişafı üçün olduqca faydalıdır".

Daha sonra çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanda innovasiyaların inkişafı və bu sahədə yaradılan əlverişli şəraitdən, rəqəmsal transformasiyanın əhəmiyyətindən danışıb və qeyd edib ki, bu müsabiqə Azərbaycanın innovasiya ekosistemində gənclərin iştirakının artırılmasına töhfədir.

→ 4



# Şuşa qlobal əməkdaşlıq platformasına çevrilir

→ 3

## İrəvanda etirazçılar güllələnirlər



Polisin işgəncəsi və zorakılığı nəticəsində etirazlarda xəsarət alaraq ölən 34 yaşlı Manvel Saakyanın yaxınları bildirib ki, üç polis əməkdaşı axşam saatlarında yaşadıqları evə girərək heç bir səbəb gətirmədən Manvelin bölməyə getməli olduğunu deyiblər. Polislər zor tətbiq edərək uşaqların gözü qarşısında onun qollarını qandallayıb bölməyə aparıblar. Ölən şəxsin anası baş nazir Nikol Paşinyana və baş prokuror Artur Davityana müraciət edib: "Görün Ermənistanda nələr baş verir. Ermənistanın daxili işlər nazirinə üzümü tutub deyirəm. Ar olsun sənə və sənin polis əməkdaşlarına!", - deyə narazı vətəndaş bildirib.

→ 8

## Azərbaycanda məcburi əməyə qarşı mübarizə gücləndirilir

→ 3

## BMT sülh çağırışları edən Azərbaycanı dəstəkləyir

→ 5

## Xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul üzrə imtahan suallarını satan şəxslər həbs edilib

→ 8

## Böyük işin kiçik zəhmətkeşləri



Azərbaycanda arıçılığın inkişafına dövlət tərəfindən böyük dəstək göstərilir. Prezident İlham Əliyev 2 fevral 2009-cu il tarixdə "Arıçılıq haqqında" qanun imzalayıb. Bu qanun Azərbaycanda arıçılığın təşkilinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə münasibətləri tənzimləyir.

Azərbaycanda bal verən 600-ə qədər bitki növü mövcuddur ki, bunların da təxminən 200-ü nektar və çiçək tozu mənbəyi kimi arıçılığın genişləndirilməsi üçün daha böyük təbii imkanlar yaradır. Bu imkanlar sayəsində arıçılığın inkişaf etdirilməsi kənd əhalisinin gəlirlərinin artmasına və məşğulluğunun təmin edilməsinə töhfə verə bilər.

→ 8

# İşğaldan azad edilmiş ərazilərdə Türkiyə ilə birgə fəaliyyət həyata keçirilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Vahid Kirişçi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı Prezident İlham Əliyevin bir neçə gün əvvəl Türkiyəyə səfəri məmnunluqla xatırlandı və bu səfərin əlaqələrimizin inkişafında rolu qeyd edildi.

Prezident İlham Əliyev Vahid Kirişçini Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.

Vahid Kirişçi təbrikə görə minnətdarlığını bildirdi, nazir kimi özünün ilk səfərini qardaş Azərbaycana etdiyini vurğuladı. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, əməkdaşlığımızın gündəliyində kənd təsərrüfatının mühüm yer tutduğu qeyd olundu.

Prezident İlham Əliyev ermənilər tərəfindən işğal dövründə ərazilərimizdə kənd təsərrüfatı ilə bağlı hər şeyin dağıdıldığını qeyd etdi və azad olunmuş torpaqlarımızda digər sahələrlə yanaşı, kənd təsərrüfatı ilə də bağlı genişmiqyaslı işlərin planlaşdırıldığını bildirdi. Bu baxımdan işğaldan azad edilmiş ərazilərdə Türkiyə ilə kənd təsərrüfatı sahəsində sıx əməkdaşlıq və birgə fəaliyyətin həyata keçirildiyi məmnunluqla vurğulandı.

Söhbət zamanı Bakıda keçirilən "Caspian Agro-2022" - Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin əhəmiyyəti və Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin başçılığı ilə nümayəndə heyətinin bu sərgidə iştirakının önəmi qeyd edildi, Türkiyə şirkətlərinin sərgidə geniş təmsil olunduqları bildirildi. Vahid Kirişçinin ölkəmizə səfərinin əməkdaşlığımızın genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

# İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası ilə bağlı qanunvericilik təkmilləşdirilir

Mayın 19-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, iclasda 13 məsələ müzakirə olunub.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli ilk olaraq Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib.

Bildirib ki, təklif olunan dəyişikliklər "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq mövcud qanunvericilik aktlarının bu qanuna uyğunlaşdırılması məqsədilə hazırlanıb. Qeyd olunub ki, qanunun 10-cu maddəsinə əsasən həmin qanunun tələblərinin pozulmasına görə şəxslər İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar. Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər bu məsuliyyətin qanunvericilik əsaslarının və növlərinin müəyyən edilməsi məqsədilə hazırlanıb. İnzibati Prosessual Məcəlləsinə təklif olunan dəyişikliklər isə Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi zamanı yaranan prosessual münasibətlərin tənzimlənməsi ilə əlaqədardır. Dəyişikliklər Mərkəzi Seçki Komissiyasının qərarlarının mübahisələndirilməsi zamanı iddia üzrə icraatın xüsusiyyətləri, bu kateqoriya inzibati mübahisələrə dair işlər üzrə icraat zamanı məhkəmə aidiyyətinin müəyyən edilməsi, iddia ərizəsinə baxılması müddəti və digər məsələləri tənzimləyir."Vətəndaşların müraciətləri haqqında" qanuna əlavə edilən yeni maddə də uyğunlaşdırma xarakteri daşıyır.

Sonra iclasda Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), habelə "Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri müzakirə olunub.




Qanun layihələri barədə komitə üzvü Kamal Cəfərov məlumat verib. Qeyd olunub ki, 20 oktyabr 2020-ci il tarixdə Milli Məclis tərəfindən "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun qəbul edilib. Həmin qanunla müəyyən edilmiş münasibətlərin pozulmasına görə İnzibati Xətalar və Cinayət məcəllələrinə müəyyən dəyişikliklər təklif edilib. Belə ki, İnzibati Xətalar Məcəlləsinə insan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında qanunvericiliyin pozulması ilə bağlı yeni maddə əlavə edilir. Həmin maddədə qeyd olunur ki, müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin orqanın təsdiq etdiyi siyahıda olmayan tibb müəssisələri və digər şəxslər donor orqanların hazırlanması, saxlanması, daşınması, idxalı və ixracına görə həm vəzifəli şəxslər, həm də hüquqi şəxslər üçün cərimələr müəyyən edilir. Əlavədə, həmçinin orqan donorluğu və transplantasiya zamanı anonimliyin qorunmamasına görə, canlı donor tərəfindən özünün zərərli vərdişləri və ona məlum olan xəstəliklər barədə məlumatın verilməməsinə görə də müvafiq cərimələr təsbit olunur.

Diqqətə çatdırılıb ki, Cinayət Məcəlləsinə təklif edilən dəyişikliklərdə isə insan orqanlarının və toxumalarının, həmçinin donor orqanlarının alqı-satqısına dair, habelə şəxsin razılığı olmadan transplantasiya məqsədilə donor orqanının götürülməsi və ya eyni məqsədlə şəxsi donor orqanının götürülməsinə məcbur etməyə görə nəzərdə tutulan cəza növləri öz əksini tapıb.

Bildirilib ki, "Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" qanunlara da uyğunlaşdırma xarakterli bəzi düzəlişlər nəzərdə tutulub.

Sonra komitə sədri Əli Hüseynli Mülki Məcəllədə, Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicəsağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb.

Bildirib ki, adıçəkilən qanunlara təklif olunan dəyişikliklər də uyğunlaşdırma xarakteri daşıyır. Bu qanunların müvafiq maddələrində sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" ifadə öz əksini tapır.

Daha sonra iclasda Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında (birinci oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri müzakirəyə çıxarılıb.

Əli Hüseynli bildirib ki, qeyd olunan qanunlara uyğunlaşdırma məqsədilə bir sıra dəyişikliklər təklif olunur. Belə ki, "Milli Arxiv Fondu haqqında" qanuna ediləcək dəyişikliklər adıçəkilən qanunvericilik aktlarında da öz əksini tapacaq.

Komitədə bir sıra digər məsələlərə, o cümlədən İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Şəhərsalma və Tikinti Məcəlləsində, "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında", "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" və "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinə də baxılıb.

Təqdim olunan məsələlər ətrafında gedən müzakirələrdə komitə sədrinin müavini Qüdrət Həsənquliyev, komitə üzvləri Erkin Qədirli, Azay Quliyev, Bəhruz Məhərrəmov, Nurlan Həsənov çıxış edərək qanunlara təklif edilən dəyişikliklər barədə fikirlərini, qeyd və təkliflərini diqqətə çatdırıblar.

Müzakirələrin sonunda gündəliyə daxil edilən 13 məsələnin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Uyğunlaşdırma xarakteri daşıyan məsələlər müzakirə olunub

**Milli Məclisin Səhiyyə komitəsinin mayın 19-da keçirilən iclasında 4 məsələ müzakirə olunub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Əhliman Əmiraslanov bildirib ki, birinci oxunuşda müzakirəyə çıxarılan 3 məsələ - "Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" qanunlara dəyişiklik edilməsi barədə, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihələri 20 oktyabr 2020-ci il tarixli "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır.

Əhliman Əmiraslanov qeyd edib ki, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun komitə tərəfindən hazırlanıb və Prezident İlham Əliyev tərəfindən təsdiq olunub. Sənədin işləməsi üçün Nazirlər Kabinetinin sərəncamı var. O bildirib ki, artıq donor bankı yaradılıb, ölkədə orqan və transplantasiya həyata keçirəcək klinikaların adları təsdiq olunub, mütəxəssislərin hazırlığına başlanılıb. Komitə sədri bildirib ki, donor sahəsində Türkiyə ilə əməkdaşlıq nəzərdə tutulub.

Sonra qanun layihələrini təqdim edən Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri Kəmalə Paşayeva bildirib ki, 20 oktyabr 2020-ci il tarixdə Səhiyyə komitəsinin önəmli qanunlarından olan "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra Əsas qanun) qəbul edilib. Həmin qanunun tətbiqi barədə ölkə Prezidenti tərəfindən imzalanmış fərmanda normativ hüquqi aktların Əsas Qanuna uyğunlaşdırılması barədə tapşırıq verilib.

Kəmalə Paşayeva vurğulayıb ki, gündəlikdə olan məsələlərdən "Əhalinin sağlamlığının qorunması haqqında" qanunla başlayan və digər qanunlara da dəyişikliyi nəzərdə tutan layihə tamamilə uyğunlaşdırma xarakteri daşıyır.

Sonra iclasda Kəmalə Paşayeva gündəlikdə olan digər 2 layihə - Azərbaycan Respublikasının Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif edilən dəyişikliklər barədə məlumat verib. Bildirib ki, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanunun 34-cü maddəsi bu qanunun pozulmasına görə məsuliyyəti nəzərdə tutur. Təqdim edilən dəyişikliklər də bu sahədə törədilən əməllərin ictimai təhlükəliliyinə uyğun olaraq 2 növ məsuliyyət nəzərdə tutur.

Qanun layihələrinin müzakirəsində Səhiyyə komitəsinin üzvləri Müşfiq Məmmədli, İlham Məmmədov, Sədaqət Vəliyeva və Məlahət İbrahimqızı orqan və toxumaların transplantasiyasının, donorluğun aktuallığından danışıblar, sənədlərlə bağlı fikirlərini bildiriblər.

İclasda iştirak edən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Cinayət və İnzibati Xətalar məcəllələrinə təklif olunan dəyişikliklərə aydınlıq gətirib.

Hər üç qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Əhliman Əmiraslanov iclasda üçüncü oxunuşda olan "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. O bildirib ki, sənəd "Nağdsız hesablaşmalar haqqında" qanuna uyğunlaşdırmanın həyata keçirilməsini təmin etmək üçün hazırlanıb. Qeyd edilib ki, layihəyə komitədə və plenar iclasda iki oxunuşda baxılıb və qəbul olunub.

Müzakirələrin sonunda deputatlar qanun layihəsini üçüncü oxunuşda plenar iclasın müzakirəsinə tövsiyə ediblər.

*"Azərbaycan"*

## Ş.M.Əliyevin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şahin Məhərrəm oğlu Əliyev Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2022-ci il*

## Mayın 20-dən Azərbaycana daha bir neçə ölkədən uçuşlara icazə veriləcək

"Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında "Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarında dəyişiklik edilib.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Baş nazir Əli Əsədov mayın 19-da Nazirlər Kabinetinin 199 nömrəli Qərarını imzalayıb. Qərara əsasən, mayın 20-dən hava nəqliyyatı vasitəsilə aşağıda qeyd olunan ölkələrin vətəndaşlarının və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarının, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına giriş-çıxışına müvafiq tələblər nəzərə alınmaqla icazə verilir:

Bolqarıstan Respublikası;
Butan Krallığı;
Cənubi Afrika Respublikası;
Qvatemala Respublikası;
Laos Xalq Demokratik Respublikası;
Livan Respublikası;
Mavriki Respublikası;
Misir Ərəb Respublikası;
Myanma İttifaqı Respublikası;
Nepal Federativ Demokratik Respublikası;
Paraqvay Respublikası;
Şimali Makedoniya Respublikası;
Şri-Lanka Demokratik Sosialist Respublikası;
Vyetnam Sosialist Respublikası.

## Türkiyə və Azərbaycan arasında əlaqələr dinamik inkişaf edir

Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov ölkəmizdə səfərdə olan Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan Kəmaləddin Heydərov görüşün təsadüf etdiyi mayın 19-nun Türkiyədə geniş qeyd edildiyi Atatürkü Anma, Gənclik və İdman Günü münasibətilə təbriklərini çatdırıb. Nazir iki qardaş ölkə arasında bütün sahələrdə mövcud əlaqələrdən danışaraq Azərbaycan və Türkiyə liderlərinin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində bu əlaqələrin ən yüksək səviyyəyə qalxdığını qeyd edib.

FHN-in fəaliyyət istiqamətlərindən ətraflı bəhs edən K.Heydərov meşə yanğınları ilə mübarizə sahəsində iki nazirlik arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Bu çərçivədə, nazir meşə yanğınlarının monitorinqinin aparılması və meşələrin yanğından mühafizəsi sahəsində erkən xəbərdarlıq sistemlərinin tətbiqi, birgə təlimlərin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinin vacibliyini qeyd edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Türkiyə Respublikasının kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçi ölkələrimiz arasında sıx əlaqələrin dinamik inkişafından danışaraq, nazir vəzifəsinə təyin olunduqdan sonra ilk səfər etdiyi ölkənin məhz qardaş Azərbaycan olmasından məmnunluq ifadə edib. V.Kirişçi meşə yanğınları ilə mübarizə sahəsində iki nazirlik arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edərək, bu mənada qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunub.

## Yeni qanunların qəbulu ilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə daha da sərtləşdirilir

Azərbaycan Respublikasının Prezidenti narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Cinayət-Prosessual Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə, "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa və bir sıra digər qanunvericilik aktlarına dəyişikliklərin edilməsi barədə normativ hüquqi aktları imzalayıb. Dəyişikliklər 3 əsas istiqaməti əhatə edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə edilən dəyişikliyə əsasən narkotik vasitələrin və ya psixotrop maddələrin xüsusilə külli miqdarda qanunsuz dövriyyəsinə görə məsuliyyət nəzərdə tutan yeni maddə əlavə edilir və bu əməlin törədilməsinə görə on beş ilədək azadlıqdan məhrumetmə növündə sanksiya müəyyən olunur. Həmçinin satış məqsədi olmadan külli miqdarda narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımaya görə məsuliyyət əhəmiyyətli dərəcədə sərtləşdirilir. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədilməsi isə yeni ağırlaşdırıcı hal kimi müəyyən edilib. Bundan əlavə, tərkibində narkotik maddələr olan bitkilərin də əldə edilməsi, saxlanılması, daşınması ilə bağlı məsuliyyəti müəyyənləşdirən normalar təkmilləşdirilib, məsuliyyət ağırlaşdırılıb.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə edilən dəyişikliyə əsasən, cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin erkən, məhkəməyə qədər məhv edilməsi qaydası müəyyən olunub.

"Narkoloji xidmət və nəzarət haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarına və bir sıra digər qanunvericilik aktlarına dəyişikliklərin edilməsi nəticəsində müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslər, həqiqi hərbi xidmətə könüllü daxil olan şəxslər dövlət tibb müəssisələrində icbari narkoloji müayinədən keçiriləcək, həqiqi hərbi xidmət hərbi qulluqçularının isə ildə bir dəfədən az olmayaraq icbari narkoloji müayinəsi təmin ediləcək.

# Azərbaycan beynəlxalq ticarətdə mühüm rol oynayır

## Litva Prezidentinin ölkəmizə səfəri strateji tərəfdaşlığın güclənməsinə yeni impuls verəcək



**Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi müstəqil xarici siyasət həyata keçirən Azərbaycan dünyanın aparıcı güc mərkəzləri, əksər dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan sıx tərəfdaşlıq münasibətləri qurub.**

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın dünyanın ayrı-ayrı qütblərində yerləşən çoxlu sayda dövlətlərlə mövcud olan əlaqələri daha da genişlənməkdədir. Rəsmi Bakı diplomatik əlaqələrdən başlamış dərin siyasi, iqtisadi-ticari, humanitar-mədəni münasibətlərə qədər bir çox ölkəylə əməkdaşlıq edir. Onlardan biri də Litva Respublikasıdır.

Azərbaycan ilə Litva uzun illərdir ki, strateji tərəfdaşdırlar. İki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq üzrə Bəyannamə əməkdaşlığın mahiyyətini əks etdirir. Mayın 18-də Litva Prezidenti Gitanas Nausedanın ölkəmizə səfəri, Prezident İlham Əliyevlə keçirilən təkbətək və geniş tərkibdə görüş, dövlət başçılarının mətbuata birgə bəyanatları, həmçinin Azərbaycan-Litva biznes-forumunda müzakirə edilən məsələlər mövcud tərəfdaşlığı daha da gücləndirmək üçün real zəmin formalaşdırdı.

### 27 illik uğurlu diplomatik münasibətlər

1991-ci ildə SSRİ-nin dağılması nəticəsində suverenlik əldə edən ölkələr müstəqil xarici siyasət yeritmək və ikitərəfli əlaqələri inkişaf etdirməyi əsas prioritetlərdən biri kimi qəbul etmişdilər. Elə Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri də Litvadır. 1991-ci il dekabrın 20-də müstəqilliyimizi tanıyan Litva ilə Azərbaycan arasında diplomatik münasibətlər 1995-ci ilin dekabr ayında qurulub və 2007-ci il aprelin 3-də Litvanın Azərbaycanda, sentyabrın 6-da isə Azərbaycanın Litvada səfirliyi açılıb.

Hər iki dövlət qarşılıqlı münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu nəzərə alaraq, öz aralarında yüksəksəviyyəli dialoq və əməkdaşlıq qurub, hazırda bu əməkdaşlığı inkişaf etdirmək üçün mühüm addımlar atmaqda davam edirlər.

Azərbaycanla Litva arasında yalnız ikitərəfli deyil, həmçinin BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar, eləcə də regional təşkilatlar çərçivəsində çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur. Həmçinin Azərbaycan Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində də Litva ilə sıx əməkdaşlıq edir. Bu münasibətlər dövlət başçılarının qarşılıqlı səfərləri və imzalanan sənədlər nəticəsində daha da inkişaf etdirilir.

İki ölkə arasında indiyədək 45-dən çox sənəd imzalanıb. Onların ən mühümü isə 2007-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq üzrə Birgə Bəyanatdır. Bu sənəd Prezident İlham Əliyevin söylədiyi kimi əməkdaşlığın mahiyyətini əks etdirməklə yanaşı, münasibətlərə yeni impuls verən hüquqi bazaya çevrilib.

Mayın 18-də keçirilən Azərbaycan-Litva biznes-forumunun sonunda isə iki ölkə arasında yeni 6 sənəd imzalandı.

### İmzalanan yeni sazişlər münasibətləri daha da şaxələndirəcək

Litva Prezidenti Gitanas Nausedanın ölkəmizə səfəri təbii ki, iki ölkə arasında ikitərəfli əlaqələrin inkişafına əlavə təkan verəcək. Buraya bizneslə yanaşı, ictimai həyatın müxtəlif sahələri də daxildir. Əlbəttə, regional təhlükəsizlik və Avropa İttifaqı ilə münasibətlər mühüm əhəmiyyət kəsb edən məsələlər sırasındadır.

Azərbaycan-Avropa İttifaqı əlaqələrini dəyərləndirən İlham Əliyev bir daha vurğuladı ki, litvalı həmkarı ilə keçirilən görüşlərdə ölkəmizlə Aİ arasında imzalanacaq yeni saziş üzrə danışıqların yekunlaşdırılması perspektivləri, enerji, nəqliyyat təhlükəsizliyi məsələləri, ticarət münasibətləri müzakirə edilib.

Gitanas Nauseda isə Litvanın Avropa İttifaqı ilə Azərbaycan arasında daha fəal əməkdaşlığın tərəfdarı olduğunu vurğulayaraq qeyd etdi ki, Azərbaycan Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" platforması kontekstində çox önəmli ölkədir və strateji enerji tərəfdaşıdır. Litva Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə irəliləyişi dəstəkləməkdə davam edir.

Bu, bir reallıqdır ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan artıq strateji tərəfdaşlıq haqqında bəyanatlar imzalayıb. Bu, üzv dövlətlərin üçdəbiridir. Təbii ki, bu da Avropa İttifaqının Azərbaycan kimi əməkdaşlıqda maraqlı olduğunu göstərir.

### Azərbaycan investorlar üçün əlverişli məkandır

Azərbaycan-Litva biznes-forumunda iki ölkənin müxtəlif sahələrdəki yeni əməkdaşlıq imkanları bir daha müzakirə edildi.

İlham Əliyev bəyan etdi ki, iki ölkə arasında iqtisadiyyat, ticarət, investisiya və digər sahələrdə fəal qarşılıqlı əlaqədə olmaq üçün əsl vaxtdır. Azərbaycanda investorlar üçün əlverişli biznes mühitinin yaradıldığını xatırladan dövlət başçısı vurğuladı ki, xarici şirkətlərin sərmayə portfelinin şaxələndirilməsi də çox vacibdir və Azərbaycanın investisiya proqramlarının ilkin vaxtlarında əsasən neft-qaz sektoruna investisiya qoyulurdusa, indi bərpaolunan enerji sahəsində birbaşa xarici investisiyalar yatırılır. Bu ilin əvvəlində xarici investorlar ilə 470 meqavat gücündə günəş və külək-elektrik stansiyaları tikmək üçün iki böyük müqavilə imzalanıb ki, bu da əlverişli investisiya mühitinin olmasının göstəricisidir.

İlham Əliyev həmçinin müxtəlif sahələrdəki iqtisadi artımı da litvalı qonaqların diqqətinə çatdırdı. Ölkə iqtisadiyyatı postpandemiya dövründə 7,2 faiz, qeyri-neft sektoru 11,4 faiz, ixrac 85 faiz, qeyri-neft ixracı isə 40 faizə yaxın artıb. Ölkədə işsizlik səviyyəsi 5-6 faizə qədər azalıb. Bütün bunlar isə ölkənin dayanıqlı inkişafını göstərir.

İki ölkə arasında müzakirə olunan məsələlərdən biri də nəqliyyat sektorunda əməkdaşlıq olub. İlham Əliyev bir daha vurğuladı ki, Azərbaycan nəqliyyat şəbəkəsinin şaxələndirilmiş zəncirini yaradıb. Coğrafi yerləşmənin üstünlüklərindən faydalanaraq Azərbaycan müasir infrastruktur - dəniz limanı, dəmir yolu bağlantıları, bir neçə beynəlxalq hava limanı, avtomobil yolları yaradıb. Açıq dənizə çıxışı olmayan ölkə olmasına baxmayaraq, Azərbaycan önəmli nəqliyyat mərkəzinə çevrilib. Bütün bunlar isə Litva və Azərbaycandan olan biznes dairələrinin əməkdaşlığı və kommunikasiyanın ən yaxşı yollarının tapılması üçün də çox önəmli olacaq.

Litva Prezidenti isə ölkəmizin son illərdə qazandığı uğurları dəyərləndirərək dedi ki, Azərbaycan çoxsaylı nailiyyətlərə imza atıb və həyata keçirilən iqtisadi siyasət Azərbaycanın qlobal iqtisadiyyatda oynadığı rolu daha da artıracaq. Asiya ilə Avropanın kəsişdiyi məkanda yerləşən Azərbaycan qlobal ticarətdə ən mühüm rollardan birini oynayır və oynayacaq. Yaşıl iqtisadiyyat" və innovasiyalarla bağlı məqsədlər Azərbaycanın gələcək iqtisadi perspektivlərini və gücünü şərtləndirən əsas meyarlardır.

Gitanas Nausedanın Azərbaycana səfəri bir daha göstərdi ki, iki ölkə arasında tərəfdaşlıq qarşılıqlı hörmət və dostluq üzərində qurulub, keçirilən tədbirlər, aparılan müzakirələr əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə stimul verəcək. Bununla yanaşı, "Şərq Tərəfdaşlığı" təşəbbüsü, hökumətlər arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya əlaqələrin genişlənməsində, müxtəlif sahələrdə layihələrin həyata keçirilməsində səmərəli platformalardır.

Ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişaf prioritetləri Litva ilə tərəfdaşlığın inkişafına şərait yaradır. Belə ki, "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi və işğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətlərində əməkdaşlıq üçün böyük perspektivlər var. Gələcəkdə qarşılıqlı işbirliyi yeni imkanlar formalaşdıracaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*




# Şuşa qlobal əməkdaşlıq platformasına çevrilir

## Mədəniyyət paytaxtımız beynəlxalq tədbirlərə layiqincə evsahibliyi edir

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı ilə Azərbaycanın rəşadətli ordusu cəmi 44 gün ərzində erməni faşizmi üzərində qəti qələbə qazanaraq ərazi bütövlüyümüzü bərpa edib.**

İşğalçı düşməni torpaqlarımızdan qovaraq BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın idi ki, kağız üzərində qalan qətnamələrini yerinə yetirib. Mənfur düşmən üzərində qazandığımız bu tarixi və parlaq qələbə, regionda, o cümlədən ölkəmizdə yeni siyasi, iqtisadi, hərbi reallıqlar yaradıb. Eyni zamanda bölgədə yeni təhlükəsizlik, əməkdaşlıq formatına stimul verib.

İndi azadlığına qovuşdurulan əzəli yurdlarımız quruculuq-bərpa meydanına, mədəniyyət mərkəzinə, beynəlxalq tədbirlərə evsahibliyi edən şöhrətli ünvana, dünyaya sülh və barışıq mesajının verildiyi unikal məkana çevrilib...

### Zəfər yolu ilə Şuşaya doğru...

Vətən müharibəsi işğaldan azad olunan tarixi torpaqlarımızda yenidən həyatın canlanmasını təmin etdi. Möhtəşəm qələbəmizin üzərindən ötən qısa zamanda erməni vəhşiliyi ilə 30 ildir ki, üz-üzə qalan yurdlarımız artıq dirçəlməyə başlayıb.

Qarabağda, Şərqi Zəngəzurda anbaan baş verən bu əzəmətli dəyişikliyi bütün dünya da yaxından izləyir. Artıq bu da xoş bir ənənəyə çevrilib ki, Azərbaycana səfər edən həm xaricdə yaşayan həmvətənlərimiz, həm də beynəlxalq ictimaiyyətin nümayəndələri mütləq yollarını azad yurdlarımızdan salır, Zəfər yolu ilə Qarabağımızın incisi Şuşaya baş çəkirlər. Eyni zamanda mədəniyyət paytaxtımızın evsahibliyi etdiyi beynəlxalq tədbirlərdə iştirak edir, bu uca şəhərdə tarixən var olan mədəni abhavanın ümumi ahənginə töhfə verirlər.

Bu baxımdan ötən ay dünya azərbaycanlılarının mədəniyyət paytaxtımıza yığışaraq təntənəli Zəfər qurultayını keçirmələri müstəsna əhəmiyyət daşıyırdı. Sayca 5-ci olan bu fəxarətli qurultayda azad Qarabağda, azad Şuşada toplaşan həmvətənlərimiz öz həmrəyliklərini bəyan etdilər.

Bu gün Şuşa həm də dünyada Qafqazın diplomatiya mərkəzi kimi tanınır. "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" adlı beynəlxalq forumun da məhz Qarabağımızın incisi Şuşada təşkil olunması buna bariz nümunədir.

Bu günlərdə Azərbaycanın dilbər guşəsi Şuşada müxtəlif ölkələrin kulinarları bir araya gəldilər. Mədəniyyət paytaxtımızda keçirilən Şuşa I Beynəlxalq Kulinariya Festivalında Azərbaycan xalqının qonaqpərvərliyi, bu şəhərin qədimliyi və gözəlliyi bir daha nümayiş etdirildi.

Bu il 12-14 may tarixlərində keçirilən beynəlxalq statuslu "Xarıbülbül" festivalının isə bir başqa təntənəsi oldu. Dünyanın müxtəlif ölkələrindən gələn folklor kollektivləri festivalda möhtəşəm çıxışlar edərək Qarabağımızın baş tacından mədəniyyət, barışıq carı çəkdilər.

### Bu dəfə İƏT heyəti Şuşaya səfər etdi

Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransında iştirak edən dövlətlərin parlament nümayəndə heyətləri də bu dəyişilməz ənənəyə sadiq qalaraq, mayın 18-də Azərbaycanın mədəniyyət paytaxtına səfər etdilər.

Qeyd edək ki, Avrasiyada əhəmiyyətli regional birlik olan İƏT-in əsas məqsədi üzv dövlətlər arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi, onların davamlı iqtisadi inkişafının təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişafı, iqtisadiyyatın və ticarətin liberallaşdırılması və regiondaxili ticarətin təşviqi, İƏT regionunun maddi sərvətlərinin səmərəli istifadəsindən ibarətdir.

Adından da göründüyü kimi, bu təşkilat üzv ölkələr arasında iqtisadi əməkdaşlığı özündə ehtiva edir, amma xüsusilə vurğulanası məqamdır ki, İƏT həm də artıq həllini tapmış Qarabağ məsələsində daim Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə edib. Təşkilatın ötən il keçirilən XIV onlayn Zirvə toplantısında çıxış edənlər Prezident İlham Əliyevi qələbə münasibətilə təbrik etmişdilər.

Türkiyə, Pakistan, İran, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan parlament nümayəndə heyətləri Şuşaya sözügedən səfərlərində mədəniyyət paytaxtımızda aparılan tikinti-quruculuq işləri ilə yaxından tanış oldular.

Eyni zamanda Şuşada erməni vandallığına da əyani şahidlik edən qonaqlar şəhər meydanında Azərbaycanın görkəmli mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəy Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş heykəlləri barədə məlumat aldılar. Parlamentarilər şəhərdə gəzinti zamanı da ermənilərin mədəniyyət abidələrimizə vurduqları ziyan, qədim artefaktlarımızı saxtalaşdırmaları barədə məlumatlandırıldılar.

Qürur qalamızın əsrarəngiz mənzərələrini seyr edən Şuşanın mehmanları bu gün əlamətdar tədbirlərin keçirildiyi baş meydana çevrilən Cıdır düzündə oldular. Keçilməz sıldırımları aşaraq Cıdır düzünə qalxan və canları, qanları bahasına Şuşanı azad edərək Azərbaycana zəfər qazandıran qəhrəman oğullarımızın şücaətinə bir daha əhsən dedilər.

Ümumiyyətlə, işğaldan azad edilən torpaqlarımıza səfər edən beynəlxalq ictimaiyyətin nümayəndələri qısa müddət ərzində Azərbaycan dövlətinin bu ərazilərdə gerçəkləşdirdiyi möhtəşəm işləri, həyata keçirdiyi böyük layihələri gördükcə heyranlıqla təqdir edirlər. Bir daha Azərbaycan xalqının quruculuq, bərpa, rifah, tərəqqi əzminə şahidlik edib, milli dəyərlərə əsaslanan bu mənəvi qüdrətini örnək götürüləsi nümunə sayırlar.

### Erməni vəhşiliyini görən dünya dəhşətə gəlir

"...Biz işğaldan azad edilmiş ərazilərə dərhal müxtəlif ölkələrdən olan diplomatların, jurnalistlərin, ictimaiyyət nümayəndələrinin səfərlərini təşkil etdik. Onlar hamısı şokda idi. Elə biz hamımız da. Orada olan hər birimiz sadəcə şok vəziyyətinə düşürdük. Ona görə ki, biz vandalizmin və barbarlığın miqyasını bilmirdik". Prezident İlham Əliyevin dediyi kimi, işğaldan azad edilən torpaqlarımızda olan erməni barbarlığı bütün dünyanı dəhşətə gətirib.

Qarabağa, Şərqi Zəngəzura səfər edən, istər xarici media, QHT, yaxud hansısa təşkilatın üzvü, ya sıravi vətəndaş, kimliyindən asılı olmayaraq hər kəs dəhşətə gəlir. Azərbaycan dövlətinin bu ərazilərdə qısa zamanda həyata keçirdiyi quruculuq-bərpa işlərinin fonunda 30 ildir ki, erməni vəhşilərinin burada törətdiyi dağıntıları, talanları görüb sözün əsl mənasında şok yaşayırlar.

İşğalçı Ermənistan bu illər ərzində tarixi torpaqlarımızı istismar edib, təbii sərvətlərimizi talayıb, bütün şəhər və kəndlərimizi viran qoyub, evlərimizi söküb, təbiətimizə qənim kəsiliblər. Barbar ermənilər bu iyrənc əməllərə həm 1990-cı illərin əvvəllərində zorla torpaqlarımıza yiyələnmək istəyəndə, həm də 2020-ci ildə Azərbaycan Ordusu onları vətənimizdən qovanda əl atıblar.

Necə deyərlər, zaman dəyişsə də, ermənilərin vəhşi xisləti dəyişmir. Barbar ermənilər milli-mənəvi dəyərlərimizə, dinimizə qarşı da dözümsüzlük, düşmənçilik nümayiş etdirərək qanunsuz şəkildə illərlə işğal altında saxladıqları torpaqlarımızda xalqımıza məxsus bütün dini ocaqları, məscidləri, məzarlıqları, tarixi, mədəni abidələri dağıdıblar.

Statistikaya əsasən, işğaldan azad olunmuş ərazilərdə tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgah olub. Həmin 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i mənfur ermənilər tərəfindən tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb.

Erməni vandalları Azərbaycana məxsus mədəni və dini mülkiyyəti talan və təhqir edib, dəyişdirib və ya qanunsuz olaraq Ermənistana daşıyıblar. İşğaldan azad edilmiş ərazilərdə 100 mindən çox mədəniyyət nümunəsinin olduğu 22 muzey və muzey filialı məhv edilib.

Sadalanan və daha toxunmadığımız minlərlə bu kimi iyrənc əməllər həm də mənfur ermənilərin özləri üçün uydurduqları və elə təkcə özlərinin inandıqları "mədəni xalq" mifologiyasını da darmadağın edir. Bu vəhşi tayfanın guya qədim tarixə, mədəniyyətə malik xalq olduğu saxta konsepsiyanı alt-üst edir. Bütün dünyaya əyani nümayiş etdirir ki, ermənilərin əsl "mədəniyyət"i Qarabağda, Şərqi Zəngəzurda 30 il ərzində törətdiyi vəhşilikdir. Viran qoyduqları yurdlardır, məhv etdikləri təbiətdir, goreşənlik edib qazdıqları qəbirlərdir, dağıdıb təhqir etdikləri dini ocaqlar, məscidlərdir. Prezident İlham Əliyevin söylədiyi kimi, bütün bunları hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib.

Faşist xislətli ermənilər insanlığa yaraşmayan, adlarına sonsuzadək qara ləkə olacaq bütün bu barbar əməlləri törətməklə zorla zəbt etdiyi torpaqları əbədi işğal altında saxlamaq istəyində idilər. Amma unudurdular ki, Azərbaycan işğalla barışmayacaq və sülh yolu ilə olmasa, müharibə yolu ilə mütləq öz dədə-baba torpaqlarını azad edəcək.

### Bu torpaqların əzəli və əbədi sahibləri qayıdıblar

İndi Azərbaycan xalqı haqq və ədalətin qələbəsi olan bu gerçəyi yaşayır. Bu torpaqların əzəli və əbədi sahibləri qayıdıb. Bu yerlərdə daimi həyatın var olması üçün möhkəm bünövrələr atılır, əsaslı quruculuq tədbirləri həyata keçirilir, infrastruktur yenilənir, yollar çəkilir, beynəlxalq hava limanları tikilir. Eyni zamanda vəhşi ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur.

Bir sözlə, Azərbaycan tarixi torpaqlarımızda hədəflədiyi bütün işləri reallığa çevirir və gələcək hədəflərə doğru uğurla irəliləyir.

Ölkəmizə gələrək azad ərazilərimizə səfər edən dünya ictimaiyyətinin nümayəndələri də görürlər ki, kim bu yurdların qurucu və əzəli sahibləri, kimi də işğalçı, barbar və talançıdır...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanda məcburi əməyə qarşı mübarizə gücləndirilir

*Mayın 19-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı ilə "Beynəlxalq Əmək Təşkilatının 29 və 105 saylı konvensiyalarının tələblərinin həyata keçirilməsində həmkarlar ittifaqlarının rolu" mövzusunda hibrid formatda seminar keçirilib.*



Seminarın açılışında çıxış edən BƏT-in sektor müdiri Sergiyus Qlovaskas qlobal problem olan məcburi əməkdən, bunun milyonlarla insanın hüquqlarını pozmasından, xüsusilə özəl sektorda daha geniş vüsət almasından, yoxsulluğa gətirib çıxarmasından, həmçinin məcburi əməyin bütün formaları ilə mübarizənin üsul və vasitələrindən danışıb.

Geniş məruzə ilə çıxış edən AHİK sədri Səttar Möhbalıyev BƏT-in "Məcburi əməyin ləğv edilməsi haqqında" 105 saylı konvensiyasının Azərbaycan tərəfindən icrasından və məcburi əməyə qarşı mübarizədə ölkəmizdə həmkarlar ittifaqlarının rolundan söz açıb. Bildirib ki, Azərbaycan hökuməti və ölkəmizin bütün maraqlı qurumları 105 saylı konvensiyanın tətbiqinə böyük diqqətlə yanaşır, göstərilən öhdəliklər nəzərə alınmaqla beynəlxalq standartlara uyğun milli əmək qanunvericiliyi formalaşdırılıb və təkmilləşdirilir. Onun sözlərinə görə, Azərbaycanda məcburi əmək halları həmkarlar ittifaqları fəaliyyət göstərən iş yerlərində aşkarlanmayıb, eləcə də bu barədə AHİK-ə ciddi məlumat, müraciət və şikayət daxil olmayıb və əmək münasibətləri ilə bağlı bütün hüquq pozuntuları hökumətin, AHİK-in, həmçinin işəgötürənlərin daimi nəzarətindədir.

S.Möhbalıyev qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə reallaşdırılan uğurlu sosial-iqtisadi islahatlar proqramına beynəlxalq səviyyədə yüksək dəyər verilir: "Azərbaycanın BƏT-in rəhbər orqanına üzv seçilməsi də bunun bir əlamətidir. İndiyədək ölkəmiz BƏT-in 58 konvensiyasına qoşulub. Həmin sənədlərdən irəli gələn öhdəliklər də nəzərə alınmaqla milli əmək qanunvericiliyimiz beynəlxalq standartlara və normalara uyğunlaşdırılır. Azərbaycan həmkarlar ittifaqları həmişə BƏT-in konvensiyalarının müddəalarının əsas prinsip və hüquqlarına əməl olunmasına böyük diqqətlə yanaşır, əmək, sosial və iqtisadi sahədə qanunvericilik aktlarının qəbul edilməsində, qanunların təkmilləşdirilməsi zamanı ekspertizada rəy və təkliflərini bildirməklə fəal iştirak edir".

Digər çıxış edənlər məcburi əməyin qurbanı olan şəxslərin hüquqlarının müdafiəsindən, onlara dəyən zərərin mütləq ödənilməsindən, maarifləndirmə işinin təşkilindən, bu sahədə əmək müfəttişliyi xidmətlərinin işinin gücləndirilməsindən, həmçinin məcburi əməyin risklərini artıran əsas səbəblərin və amillərin aradan qaldırılması zərurətindən bəhs ediblər.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# Litva Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb



Litva Respublikasının Prezidenti Gitanas Nausedanın Azərbaycan Respublikasına rəsmi səfəri mayın 19-da başa çatıb. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Litva Respublikasının Prezidenti Gitanas Nausedanı və xanımı Diana Nausedieneni Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

# İran Prezidenti bu ölkədə səfərdə olan Baş nazirin müavini Şahin Mustafayevi qəbul edib

İran İslam Respublikasında səfərdə olan Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev mayın 19-da İran Prezidenti Seyid İbrahim Rəisi ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini İran Prezidentinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını çatdırıb, hər iki ölkə rəhbərlərinin iradəsi və diqqəti ilə Azərbaycan-İran əlaqələrinin inkişaf etdiyini vurğulayıb.

Görüşdə ölkələrarası faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi, birgə layihələrin icrasının davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi İranın Azərbaycanla əlaqələrinin inkişafına xüsusi önəm verdiyini qeyd edərək səmimi salamlarının və İrana dəvətinin Azərbaycan Respublikasının Prezidentinə çatdırılmasını xahiş edib.

# Baş nazirin müavini İranda bir sıra rəsmi şəxslərlə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev İrana səfəri çərçivəsində İran İslam Respublikasının xarici işlər naziri Hüseyin Əmir Abdullahian ilə də görüşüb.

İkitərəfli münasibətlərin yüksək səviyyədə inkişafından, iki ölkə arasında ticarət dövriyyəsində müşahidə olunan artımdan məmnunluq ifadə edən tərəflər, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının 15-ci iclasında əldə olunan razılıqların, həmçinin İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumunun icrasına tezliklə başlanmasının önəmini vurğulayıblar.

Görüşdə həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri üzrə fikir mübadiləsi aparılıb. İki ölkə arasında iqtisadi, ticarət, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlıq, habelə yüksəksəviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi təqdir olunub.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional əməkdaşlıq məsələləri ətrafında geniş fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev İrana səfəri çərçivəsində ölkənin energetika naziri Əli Əlkbər Mehrabian ilə görüşüb.

Görüşdə energetika sahəsində mövcud layihələrin davam etdirilməsi və əməkdaşlığın artırılması, İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan MR arasında yeni kommunikasiya bağlantısının yaradılması haqqında Anlaşma Memorandumunun enerji sahəsi üzrə işlərinin icrası məsələləri müzakirə mövzusu olub.

Söhbət zamanı Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin başa çatdırılması, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində həyata keçirilən işlərin gedişi də nəzərdən keçirilib.

Görüşdə həmçinin üçtərəfli əməkdaşlıq layihələri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

* * *

İranda səfərdə olan Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev bu ölkənin neft naziri Cavad Övci ilə görüşüb.

Görüşdə Azərbaycan ilə İran arasında Türkmənistan qazının İran ərazisi vasitəsilə Azərbaycana nəqli-mübadiləsi üzrə layihənin uğurla həyata keçirilməsindən, neft və qaz sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub, müştərək layihələrin iki ölkə üçün faydası və əlaqələrin möhkəmlənməsində önəmi vurğulanaraq bu istiqamətdə işlərin davam etdirilməsi qərara alınıb.

*AZƏRTAC*

# YAP Gənclər Birliyi və Bakı Ali Neft Məktəbinin birgə təşkil etdiyi 1-ci Rəqəmsal İdeya Müsabiqəsinə yekun vurulub

Mayın 19-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş 1-ci Rəqəmsal İdeya Müsabiqəsinin bağlanış mərasimi keçirilib. Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyinin və Bakı Ali Neft Məktəbinin (BANM) birgə layihəsi olan müsabiqənin qalibləri mükafatlandırılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra 1-ci Rəqəmsal İdeya Müsabiqəsi ilə əlaqədar videoçarx nümayiş etdirilib.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov müsabiqə barədə hesabat verərək bildirib ki, əsas məqsədimiz partiyanın gənc fəallarının innovasiya yönümlü potensiallarının aşkar edilməsi, komanda quruculuğu bacarığının təkmilləşdirilməsi və ölkəmizdəki innovasiya ekosistemində gənclərin iştirakının artırılmasıdır. Bildirilib ki, müsabiqə üçün respublikamızın 60 şəhər və rayonundan 1361 nəfər qeydiyyatdan keçib. Müraciət edənlər arasından 23 fərqli şəhər və rayonu təmsil edən 120 iştirakçı layihədə iştirak şansı qazanıb və bu iştirakçıların 55 nəfəri kişi, 65-i isə qadındır.

Bakı Ali Neft Məktəbinin rektoru, YAP İdarə Heyətinin üzvü Elmar Qasımov müsabiqənin gənclərin inkişafında, onların potensiallarının, bilik və bacarıqlarının artırılmasında xüsusi əhəmiyyətə malik olduğunu bildirib.







Rektor deyib: "Əmək bazarının tələblərinə uyğun peşəkar mütəxəssislər yetişdirən Bakı Ali Neft Məktəbi olaraq gənclərin inkişafına dəstək verən bu cür tədbirləri təşkil etməkdən qürur duyuruq. Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi ilə birgə təşkil etdiyimiz bu müsabiqə innovasiya yönümlü gənclərin istedadlarını nümayiş etdirməsi üçün xüsusi fürsətdir. Əminəm ki, bu müsabiqə innovativ yanaşmaları ilə fərqlənən gənclərə böyük fayda verəcək".

SOCAR-ın vitse-prezidenti Xalik Məmmədov çıxışında YAP Gənclər Birliyi və BANM tərəfindən bu layihənin təşkil olunmasını yüksək qiymətləndirib və müsabiqənin Azərbaycan gəncliyinin inkişafında xüsusi önəm kəsb etdiyini qeyd edib. O, SOCAR-ın da gənclərin inkişafına xidmət edən müxtəlif təqaüd proqramları həyata keçirdiyini, bu proqramlardan yüzlərlə gəncin yararlandığını vurğulayıb.

Mərasimdə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov vurğulayıb ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin nəticəsində ölkəmizdə yüksək intellektli, vətənpərvər, bilikli və bacarıqlı gənc nəsil formalaşıb. Onun sözlərinə görə, ölkəmizin ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasında da böyük gənclər ordusu birləşib. Tahir Budaqov deyib: "Yeni Azərbaycan Partiyası hər zaman gənclərin inkişafına geniş imkanların yaradılmasını, bilik və bacarıqlı gənclərimizə dəstək verilməsini diqqət mərkəzində saxlayıb. Partiyamız bu məqsədlə davamlı olaraq müxtəlif səmərəli layihələr həyata keçirir. İnanıram ki, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan bu müsabiqə seçilmiş 120 nəfər üçün çox faydalı olacaq və gənclərimiz öz innovativ potensialını təkmilləşdirəcək. Hesab edirəm ki, bu tipli layihələrin gələcəkdə də davam etdirilməsi gənclərimizin intellektual inkişafı üçün olduqca faydalıdır".

Daha sonra çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Azərbaycanda innovasiyaların inkişafı və bu sahədə yaradılan əlverişli şəraitdən, rəqəmsal transformasiyanın əhəmiyyətindən danışıb və qeyd edib ki, bu müsabiqə Azərbaycanın innovasiya ekosistemində gənclərin iştirakının artırılmasına töhfədir. O, müsabiqənin qarşıya qoyulan hədəf və məqsədlərə nail olduğuna əminliyini ifadə edərək vurğulayıb ki, rəhbərlik etdiyi nazirlik hər zaman bu tipli tədbirlərə dəstək göstərməyə hazırdır.

Təhsil naziri Emin Əmrullayev isə gənclərə təqdim olunan bu imkanı yüksək qiymətləndirərək vurğulayıb ki, müsabiqə istedadlı və innovativ yanaşmaları ilə seçilən gənclərin bacarıqlarının üzə çıxmasında böyük rola malikdir. Nazir rəqəmsallaşmanın əhəmiyyətini qeyd edərək bildirib ki, bu amil həyatın bütün sahələrində, xüsusilə də təhsildə vacibdir. Emin Əmrullayev iştirakçıların fərqli mühitdə, fərqli öyrənmə imkanı əldə etdiyi bu müsabiqədə xüsusilə regionlardan yüzlərlə gəncin iştirak etmək arzusunda olmasını sevindirici hal olaraq qiymətləndirib.

Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev çıxışında ölkəmizdə həyata keçirilən gənclər siyasətinin əhəmiyyətindən, gənc nəslə göstərilən dövlət qayğısından bəhs edərək bildirib ki, YAP və BANM-nin birgə təşkil etdiyi 1-ci Rəqəmsal İdeya Müsabiqəsi də gənclərin inkişafı yönündə atılan mühüm addımlardan biridir.

Tədbirdə çıxış edən Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru, müsabiqənin münsiflər heyətinin üzvü Fariz Cəfərov nəticələr haqqında məlumat verib. O, həmçinin regionlardan olan müəllimlərin rəqəmsal ideyalarının çox sevindirici olduğunu qeyd edib və bildirib ki, müsabiqə gənclərin innovativ vərdişlərə yiyələndiyini bir daha sübut etdi.

Qeyd edək ki, müsabiqəyə qeydiyyat prosesi aprelin 14-dən 28-dək davam edib. Müsabiqədə seçilən iştirakçılar 8 saat ərzində xüsusi mentorlarla komanda katalizatoru, hakaton, intellekt rinqi, beyin fırtınası, ideyalar sərgisi və layihələrin təqdimatından təşkil olunmuş komanda yarışlarında ən yaxşı olmaq üçün mübarizə aparıblar.

I yerin qalibi adını "Xudayar" komandası qazanıb. "Zəfər" kollektivi II yerə, Yarat" komandası isə III yerə layiq görülüb. "İntellekt" rinqində "İnnovasiya" kollektivi fərqlənib.

# Bakıda qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair Avropa Şurası standartları çərçivəsində tədbir olub

Mayın 19-da Bakıda qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair Avropa Şurası standartları və bu kontekstdə milli parlamentlərin rolu ilə bağlı məlumatlılığın artırılmasına dair tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqı (Aİ), Avropa Şurası (AŞ) və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Milli Məclisin deputatları da iştirak ediblər.

Avropa Şurasının Bakı ofisinin rəhbəri Zoltan Hernyesin moderatorluğu ilə keçirilən toplantıda quruma üzv dövlətlərin təcrübəsinə əsaslanaraq, parlamentlərin yerli kontekstdə bu standartların təşviqində rolu müzakirə edilib.

Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç videoformatda çıxış edərək Azərbaycanın məişət zorakılığı ilə mübarizədə müsbət addımlar atdığını, gender bərabərliyinin təmin olunması, məişət zorakılığının qarşısının alınması məqsədilə qanunvericilik aktlarının qəbul olunduğunu, eləcə də Milli Fəaliyyət Planının hazırlandığını diqqətə çatdırıb. Azərbaycanın qadın zorakılığına qarşı fəal mübarizə aparan ölkələrdən olduğunu vurğulayan Avropa Şurası rəsmisi hazırda İstanbul Konvensiyasına 35 dövlətin qoşulduğunu və Azərbaycanın da tezliklə bu konvensiyaya qoşulacağına ümidvar olduğunu bildirib.

Avropa Şurasının Baş katibi əlavə edib ki, Azərbaycan BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasına sadiqdir.



Baş katib bildirib ki, Avropa Şurası Azərbaycan dövləti ilə birlikdə qadınların zorakılıqdan uzaq, sərbəst, şiddətsiz həyat yaşamaları, eləcə də hamı üçün daha təhlükəsiz həyatın təmin edilməsi üçün töhfə verməyə hazırdır.

Milli Məclisin Sədri Sahibə Qafarovanın fəaliyyətini yüksək qiymətləndirən Baş katib qadın zorakılığına qarşı mübarizədə maarifləndirmə işlərində deputatları fəal olmağa çağırıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycanda gender bərabərliyinin təmin edilməsinin, qadın zorakılığına qarşı mübarizənin diqqətdə saxlanıldığını bildirib. Bu istiqamətdə müvafiq qanunların və normativ aktlar qəbul edildiyini bildirən komitə sədri ölkəmizin bu sahədə kifayət qədər aydın və qəti mövqeyə malik olduğunu vurğulayıb.

Son iki ildə bu sahə ilə bağlı hesabatın Milli Məclisə təqdim olunduğunu diqqətə çatdıran Bahar Muradova qadın zorakılığına qarşı səmərəli icra mexanizmlərinin yaradılmasının vacibliyini vurğulayıb.

Milli Fəaliyyət Proqramının əhəmiyyətindən danışan komitə sədri qeyd edib ki, gender bərabərliyinin təmin edilməsi məqsədilə bələdiyyələrdə komissiyalar yaradılıb. Bu komissiya riskli qrupdan olan insanlarla işləyir. Bildirilib ki, bu istiqamətdə deputatların seçicilərlə iş aparmaları ümumi işə töhfə vermiş olar.

Bahar Muradova həmçinin deyib: "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT, Avropa İttifaqı ilə sıx əməkdaşlıq edir və bu çərçivədə mütəmadi olaraq tədbirlər keçirilir, təlimlər təşkil edilir.

Zorakılıqdan danışarkən müharibələrə toxunmamaq mümkün deyil. Azərbaycan 30 ilə yaxın münaqişə və müharibədən əziyyət çəkən ölkə kimi zorakılıqla qarşı-qarşıya qalıb. Komitə tərəfindən yaradılan 3 icma və 14 qadın resurs mərkəzi fəaliyyət göstərir".

Komitə sədri ölkəmizdə məişət zorakılığı nəticəsində hüququ pozulanların müdafiəsinin diqqətdə saxlanıldığını da qeyd edib. O, uyğun büdcə vəsaitlərinin ayrılması və ona nəzarət sahəsində parlamentlərin rolundan da danışıb, həmçinin tvininq layihəsi çərçivəsində monitorinq qruplarının fəaliyyətini dəstəkləmək üçün qanunvericilik təkliflərinin, qurbanların təhlükəsizliyinin təmin edilməsi məqsədilə mühafizə orderləri ilə bağlı təkliflərin hazırlandığını qeyd edib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko çıxışı zamanı qadınlara qarşı zorakılıqla, o cümlədən məişət zorakılığı ilə mübarizənin Aİ-nin əsas prioritetlərindən biri olduğunu diqqətə çatdırıb. Uzun illərdir bu sahədə Azərbaycanla sıx əməkdaşlığın davam etdiyini qeyd edən P.Mixalko hökumətin, eləcə də AQUPDK-nin bu sahədə gördüyü işləri yüksək qiymətləndirib.

Tədbir müzakirələrlə davam edib.

Qeyd edək ki, tədbir Şərq Tərəfdaşlığı ölkələrində Avropa İttifaqı və Avropa Şurasının birgə proqramı olan Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II (PGGII) çərçivəsində "Azərbaycanda İstanbul Konvensiyası və digər gender bərabərliyi standartlarına dair məlumatlılığın artırılması" layihəsi əsasında reallaşdırılıb.

# Bakıda Azərbaycan-Türkiyə Qeyri-Hökumət Təşkilatlarının Əməkdaşlıq Forumu keçirilib

Mayın 19-da Bakıda Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə "Şuşa ili" çərçivəsində ilk dəfə olaraq Azərbaycan-Türkiyə Qeyri-Hökumət Təşkilatlarının Əməkdaşlıq Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forumda açılış nitqi ilə çıxış edən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva Azərbaycan-Türkiyə əlaqələrindən və tədbirin əhəmiyyətindən danışıb. Bildirib ki, belə əhəmiyyətli forumun Bakıda keçirilməsi vətəndaş cəmiyyətinin inkişafına böyük təkan verəcək. A.Əliyeva qeyd edib ki, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı dövlət siyasətidir və vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi ilə bağlı mühüm işlər görülür, onların inkişafı üçün əlverişli mühit yaradılıb. Bunun nəticəsidir ki, ölkəmizdə qeyri-hökumət təşkilatlarının fəaliyyəti ildən-ilə genişlənir.

Sonra çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra vətəndaş cəmiyyəti institutları ölkənin iqtisadi, sosial və mədəni həyatında mühüm rol oynayıblar. QHT-lərə Dövlət Dəstəyi Agentliyinin yaradılması dövlət ilə QHT-lər arasında əməkdaşlığın inkişafının nümunəsinə çevrilib. Buna görə də dövlət orqanlarının QHT-lərlə yaxından əməkdaşlıq etməsi, qərarların qəbulu və sifarişlərin icrası prosesində onların iştirakına şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dövləti ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının formalaşmasına və inkişafına daim ciddi önəm verir. Hazırda ölkədə ictimai təşkilatların fəaliyyətini tənzimləyən əlverişli hüquqi baza mövcuddur.

Digər çıxış edənlər - Türkiyə Daxili İşlər Nazirliyinin Vətəndaş Cəmiyyəti ilə Əlaqələr Baş İdarəsinin nümayəndə heyətinin rəhbəri Ahmet Türköz, Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsi sədrinin müşaviri Orxan Qazigil, Milli Məclisin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayilov, Milli Məclisin deputatı Nizami Cəfərov, Azərbaycan Respublikasının Gənclər Fondunun İcraçı direktoru Fərid Cəfərov, Azəri Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü İsrayıl İsgəndərov bildiriblər ki, 2022-ci ilin "Şuşa ili" elan olunması çərçivəsində keçirilən Azərbaycan-Türkiyə Qeyri-Hökumət Təşkilatlarının Əməkdaşlıq Forumu hər iki ölkənin QHT nümayəndələri üçün faydalı müzakirələr platforması olacaq və bu sahənin daha da təkmilləşməsinə böyük töhfə verəcək.

Forumun açılışından sonra Türkiyədən olan QHT-lərin öz sahələri üzrə təqdimatları keçirilib.

İkinci paneldə çıxış edən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndəsi Toğrul Məmmədli panelin proqramı haqqında məlumat verib. Daha sonra Siyasət, İqtisadiyyat və Cəmiyyəti Tədqiqat Vəqfinin (SETA) xarici siyasi tədqiqatçısı Mustafa Caner, Qadın və Demokratiya Dərnəyinin İdarə Heyətinin rəhbərinin müavini xanım Canan Sarı, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri Aygün Attar, Türkiyə Yeşilay Cəmiyyətinin İcraçı direktoru Muhammet Nurullah Atalan, Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin baş katibi İlyas Demirçi, Türkiyə Gənclik Vəqfinin nümayəndəsi Elif Habip öz sahələri üzrə təqdimatlar ediblər.

Təqdimatlardan sonra hər iki ölkə QHT-ləri arasında sual-cavab formatında diskussiya aparılıb.

Forumun yekunu olaraq bəyanat qəbul edilib.

Məlumat üçün bildirək ki, Azərbaycan və Türkiyənin vətəndaş cəmiyyəti institutları arasında dialoqun, əməkdaşlığın və birgə fəaliyyətin genişləndirilməsinə, qarşılıqlı maraq doğuran müştərək layihələrin və proqramların reallaşdırılmasına yardım etməklə ölkələrimiz arasında dostluğun və əməkdaşlığın inkişafına töhfə vermək məqsədilə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında "Birgə Fəaliyyət və Əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

# İqtidar-müxalifət dialoquna növbəti töhfə

Ölkəmizdə həyata keçirilən iqtidar-müxalifət dialoqunun davamı olaraq, mayın 19-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev ilə görüş keçirib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şöbə müdiri Ədalət Vəliyev ölkəmizdə siyasi plüralizmin, fikir azadlığının təmin olunması, bu məqsədlə ictimai iştirakçılığın genişmiqyaslı tətbiqi və digər önəmli məsələlərlə bağlı görülən qanunvericilik və institusional tədbirlər çərçivəsində çoxpartiyalı sistemin inkişafına dövlət dəstəyinin təzahüründən söz açıb. Şöbə müdiri bu istiqamətdə son bir neçə ildə yeni partiyalarla birgə Milli Cəbhə Partiyasının da dövlət qeydiyyatından keçməsi və bugünkü legitim fəaliyyəti, Azərbaycan Milli Məclisində təmsilçiliyi haqqında fikirlərini bildirib.

Ədalət Vəliyev müxtəlif siyasi qüvvələrin təmsil olunduğu VI çağırış Milli Məclisin ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən köklü siyasi islahatlar çərçivəsində formalaşdığını, buradakı müxalifət partiyalarının nümayəndələrinin müstəqil Azərbaycanın parlament tarixində ilk dəfə olaraq həm Milli Məclisin rəhbərliyində, həm də komitə və komissiyaların rəhbərliyində təmsil olunduqlarını qeyd edib.

Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı Razi Nurullayev ölkəmizdəki siyasi dialoq təşəbbüslərinin ilkin mərhələsində baş verən Vətən müharibəsi zamanı mütərəqqi qüvvələrin siyasi birliyinin və milli həmrəyliyinin şanlı zəfərə və dövlətçiliyimizin möhkəmlənməsinə birbaşa xidmət etdiyini vurğulayıb, hazırda aparılan və gələcəkdə aparılacaq iqtidar-müxalifət dialoqunun davam etdirilməsinin zəruriliyini bildirib. Yeni siyasi plüralizm mühitinin daha da inkişafı üçün ölkədəki bütün partiyalarla konstruktiv əməkdaşlığın qurulması, xüsusən partiyaların dövlət qeydiyyatına alınması, qurultayların keçirilməsi, hesabatların Mərkəzi Seçki Komissiyasına vaxtında və müəyyən edilmiş qaydada təqdim olunması, azad və demokratik mühitin formalaşması çərçivəsində kütləvi informasiya vasitələrinə məhdudiyyətsiz çıxış imkanlarının yaradılması, onların ofislə təmin olunması, partiyaların aktivləşməsi ölkədə aparılan siyasi dialoq təşəbbüslərinin ən vacib xarakterik xüsusiyyəti kimi dəyərləndirilib.

Prezident İlham Əliyevin "Dövlət təşəbbüslərinin davamlılığı, çoxpartiyalı sistemin formalaşması, islahatçı kursa sadiqlik, ölkədə siyasi fəaliyyət üçün münbit şəraitin dəstəklənməsi, demokratik ənənələrin inkişafı və s. sadaladığım strateji prioritetlərin icrası prosesində siyasi partiya və vətəndaş cəmiyyəti institutları fəal mövqe tutmalıdır", - tezisini xatırladan Ədalət Vəliyev bu fikirlərin əslində siyasi partiyalara və vətəndaş cəmiyyəti institutlarına çağırış olduğunu ifadə edib, xüsusən Milli Məclisdə təmsil olunan partiyaların bu çağırışa daha yaxından qoşulmasının əhəmiyyətini bildirib.

Sonda ölkəmizdə dərinləşməkdə olan siyasi dialoq mədəniyyəti prosesi, dövlət siyasətinin müxtəlif istiqamətləri ilə bağlı siyasi partiyaların təklif və təşəbbüsləri, işğaldan azad olunan torpaqlarımızda aparılan quruculuq işlərinin dövlətimizin iqtisadi qüdrətinin göstəricisi olması, bu işdə beynəlxalq qurumların Azərbaycana olan ikili münasibəti və ölkəmizə qarşı hələ də davam edən beynəlxalq ədalətsiz təhdidlərə müxalifət partiyalarının öz etirazlarını bildirməsinin önəmi və digər məsələlər haqqında fikir mübadiləsi aparılıb.

# *Migel Angel MORATİNOS:* "BMT sülh çağırışları edən Azərbaycanı dəstəkləyir"

Mayın 19-da Azərbaycanın mədəniyyət paytaxtı Şuşada "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb.





AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən mədəniyyət naziri Anar Kərimov toplantının keçirildiyi Şuşa şəhərinin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Ordumuzun şücaəti sayəsində azad edildiyini xarici qonaqların diqqətinə çatdırıb. Nazir deyib: "Azərbaycanın dilbər guşəsi olan Şuşada bir araya gəlmişik. Bu gün tədbirdə iştirak edən xarici qonaqlarda sual yarana bilər ki, nəyə görə Şuşa bizim üçün bu qədər önəmlidir? Ona görə ki, Şuşa Azərbaycan mədəniyyətinin özüdür, zənginliyidir və irsimizdir. Bu şəhərin hər daşı bizim üçün o qədər əzizdir ki, hətta Vətən müharibəsi zamanı bizim igid ordumuz yalnız yüngül silahlardan istifadə edərək tarixi abidələrimizə zərər yetirməməyə çalışdı. Bu gün Prezident İlham Əliyevin təsdiqlədiyi plan əsasında Şuşada çox böyük yenidənqurma işləri həyata keçirilir. Şəhərdə infrastrukturun yenidən qurulmasına çox böyük diqqət yetirilir. Hazırda göründüyü kimi, burada sosial infrastrukturun inşasına başlanılıb. Bu yenidənqurma işləri vaxtilə Şuşadan didərgin düşən həmvətənlərimizin tam rahat şəkildə doğma ocaqlarına qayıtmalarına şərait yaradacaq. Əminəm ki, Şuşanın ab-havası sizə müsbət təsir göstərəcək və bu məkanda bundan sonra da bir çox tədbirlərdə sizlərlə bir araya gələcəyik".

Sonra beynəlxalq konfrans panel iclasla işini davam etdirib. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə heyətinin üzvü Esmira Cəfərovanın moderatorluğu ilə keçən iclasda TÜRKSOY-un Baş katibi, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Mədəni Mülkiyyətlərin Qorunması və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) Baş direktoru Ebber Ndoro və digər qonaqlar çıxış ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxışı zamanı atüstü milli oyunlarımızın qorunub saxlanılması, qədim tarixə malik atçılıq ənənələrinin bərpası, ölkəmizdə atçılıq turizminin təbliğindən danışıb. Bildirib ki, Qarabağ atı ilə oynanılan çövkən oyunu 2013-cü ildə UNESCO-nun "Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs üzrə Siyahı"ya daxil edilib. Çövkən artıq Qarabağla yanaşı, ölkəmizin digər regionlarında geniş yayılıb.

Emin Hüseynov milli-mədəni dəyərlərimizin qorunması və təbliğində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın mühüm xidmətlərini də diqqətə çatdırıb.

BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Angel Moratinos konfrans iştirakçılarına videomüraciətində Şuşada keçirilən tədbirdə iştirak edə bilməməsinə görə təəssüfləndiyini bildirib. Azərbaycan ilə mədəniyyətlərarası dialoq sahəsində əməkdaşlığı yüksək qiymətləndirdiyini deyən M.A.Moratinos sülh çağırışları edən Azərbaycanı dəstəklədiklərini vurğulayıb. Qeyd olunub ki, işğaldan azad olunmuş ərazilərdə tarixi irsi bərpa etmək, eyni zamanda, mədəni ruhu geri qaytarmaq üçün hər şeydən əvvəl sülhü bərpa etmək lazımdır. Ali nümayəndə sülh anlayışının və sülh naminə fəaliyyətlərin daha sıx şəkildə önə sürülməsinin vacibliyini diqqətə çatdırıb.

BMT-nin Sivilizasiyalar Alyansı ilə Azərbaycanın əlaqələri haqqında da fikirlərini bölüşən M.A.Moratinos ölkəmizin beynəlxalq sülh çağırışlarını yüksək qiymətləndirib: "Müxtəlif mədəniyyətlər arasında anlaşma yaratmaq, sülhü təbliğ etmək üçün birgə çalışmalıyıq".

Sonra konfrans iştirakçıları italiyalı fotoqraf Fabrizio Continin işğaldan azad edilmiş ərazilərimizdə lentə aldığı fotolardan ibarət sərgi ilə tanış olublar.

Xatırladaq ki, Şuşada "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans işini bu gün davam etdirir.

# Azərbaycan ilə Litva arasında əməkdaşlıq zəngin təcrübəyə və uğurlu nəticələrə əsaslanır



Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfdaş ölkələrin qabaqcıl təcrübəsi olan hüquq-mühafizə orqanları, ölkəmizin aparıcı elm və təhsil müəssisələri, tədris və ixtisaslaşdırılmış akademiyaları ilə işgüzar əlaqələrə daim xüsusi önəm verilir.

Baş Prokurorluqda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanda səfərdə olan Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskiene və Litvanın Xüsusi İstintaq Xidmətinin direktoru Jidrunas Bartkus fəxri qonaqlar qismində iclasa qatılıblar.

Şuranın iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Milli Məclisin, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, Bakı Dövlət Universitetinin, Dövlət İdarəçilik Akademiyasının, ADA Universitetinin, Milli Aviasiya Akademiyasının, eləcə də digər dövlət orqanlarının, ali təhsil müəssisələrinin, Ədliyyə, Polis, Dövlət Təhlükəsizliyi Xidməti, Gömrük akademiyalarının, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin nümayəndələri iştirak ediblər.

Elmi-Məsləhət Şurasının iclasını açan Baş prokuror ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisələr, o cümlədən ölkə rəhbərliyinin dəstəyi ilə işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən geniş quruculuq-bərpa işləri, beynəlxalq müstəvidə qazanılan uğurlar, eləcə də prokurorluq orqanlarının ötən dövrdə fəaliyyəti, o cümlədən həyata keçirilən islahatlar barədə Şura üzvlərini məlumatlandırıb.

Nida Qrunskiene cinayət və korrupsiyaya qarşı mübarizə sahəsində Azərbaycan ilə Litva arasında əməkdaşlıq barədə çıxış edib. Xüsusi vurğulanıb ki, hər iki qurum arasında əməkdaşlıq əlaqələri zəngin təcrübəyə və uğurlu nəticələrə əsaslanır.

Jidrunas Bartkus Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Litva Respublikasının həyata keçirdiyi "Azərbaycanda aktivlərin bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" Tvininq layihəsinin əsas məqsədləri barədə ətraflı çıxış edib.

Bundan əlavə, Şuranın iclasında Baş Prokurorluğun idarə rəisi Vüqar Əliyev "Azərbaycan Respublikasında aktivlərin bərpası sahəsində mövcud vəziyyət", Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin idarə rəisi Natiq Eyvazov "Milli antikorrupsiya fəaliyyətində beynəlxalq standartların tətbiqi vəziyyəti" mövzularında məruzələrlə çıxış ediblər.

Eyni zamanda, iclasda Dövlət Gömrük Komitəsi Akademiyasının baş müəllimi Şahin Hüseynov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Fərid Dadaşov və Elmi-Məsləhət Şurasının katibi, hüquq üzrə fəlsəfə doktoru Nigar Qələndərli tərəfindən metodiki vəsaitlərin və kitabların təqdimatları keçirilib.

Daha sonra Elmi-Məsləhət Şurası üzvlərinin gündəlikdə duran mövzular, o cümlədən müxtəlif hüquqi məsələlərə dair çıxışları dinlənilib, geniş müzakirələr aparılıb.

# Azərbaycanla Türkiyə arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın iclası başlayıb

İstanbulda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyi arasında əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın 10-cu iclası öz işinə başlayıb.

İclasın açılışında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev 19 May - Atatürkü Anma, Gənclik və İdman bayramı münasibətilə Türkiyənin əmək və sosial müdafiə naziri Vedat Bilginə və onun rəhbərlik etdiyi kollektivə təbrikini ifadə edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycanla Türkiyə arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan S.Babayev həmin inkişafın təmin edilməsində iki qardaş ölkənin dövlət başçılarının birgə səylərinin mühüm rola malik olduğunu diqqətə çatdırıb.

O, Azərbaycanla Türkiyənin hər zaman bir yerdə olduğunu, İkinci Qarabağ müharibəsi zamanı da bunu bir daha bütün dünyaya nümayiş etdirdiyini bildirib. Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan-Türkiyə münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayıb.

Türkiyə ilə əmək, məşğulluq və sosial müdafiə sahəsində əlaqələrin daha da gücləndirilməsinin mühüm əhəmiyyətini qeyd edən S.Babayev ölkəmizdə əmək, məşğulluq və sosial müdafiə sahəsində aparılan islahatlar barədə məlumat verib. Birgə Daimi Komissiyanın iclasının da iki nazirlik arasında əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

Türkiyənin əmək və sosial müdafiə naziri Vedat Bilgin Azərbaycanın Türkiyə üçün dost və qardaş ölkə olduğunu, iki ölkənin hər zaman bir-birinin yanında olduğunu, əlaqələrin daim inkişaf etdiyini diqqətə çatdıraraq əmək və sosial müdafiə sahəsində əlaqələrin inkişafı üçün səylərin daim artırıldığını vurğulayıb. Hər iki nazirliyin islahatlar prosesində fəal təcrübə mübadilələrinin əhəmiyyətini qeyd edib.

Birgə Daimi Komissiyanın iclasında iki nazirlik arasında ötən dövrdə imzalanmış əməkdaşlıq sənədlərinin icrası sahəsində görülmüş işlər nəzərdən keçirilir.

Əməkdaşlığın müvafiq fəaliyyət sahələri üzrə daha da genişləndirilməsi, sosial sahədə mütərəqqi təcrübələrin tətbiqi, DOST konsepsiyası, elektron xidmətlərin geniş tətbiqi, əlilliyi olan şəxslərə, o cümlədən müharibə əlillərinə reabilitasiya xidmətlərinin göstərilməsi, əmək, məşğulluq sahəsində islahatlar və digər sahələrdə təcrübə, məlumat mübadilələrinin aparılması müzakirə olunur.

# Belarusun Baş naziri "Caspian Agro-2022" sərgisini ziyarət edib

Bakı Ekspo Mərkəzində 15-ci yubiley Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı (Caspian Agro-2022) sərgisi davam edir. Sərginin ikinci günündə Belarusun Baş naziri Roman Qolovçenkonun rəhbərlik etdiyi nümayəndə heyəti "Caspian Agro-2022" və "InterFood Azerbaijan" sərgiləri ilə tanış olub.





Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov qonaqlara sərgi haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, sərgidə ümumilikdə 24 ölkədən 449 şirkət iştirak edir. Bu il "Caspian Agro" sərgisi ağıllı kənd, süni intellekt, İT xidmətləri, pilotsuz uçuş aparatları (dronlar) kimi bölmələri əhatə edən "Smart Agro" istiqamətini təqdim edir.

Belarus Baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinə Azərbaycanda kənd təsərrüfatı sahəsində həyata keçirilən tədbirlər, aqrar sahəyə dövlət dəstəyi ilə bağlı ətraflı məlumat verilib. Sərginin ziyarətçiləri aqrar sahə ilə bağlı innovativ həllər və nailiyyətlərin nümayiş olunduğu Kənd Təsərrüfatı Nazirliyinə məxsus pavilyonu, müxtəlif ölkələrin milli stendlərini ziyarət edib, yerli və xarici şirkətlərin təqdim etdiyi məhsul və xidmətlərlə tanış olublar.

Sərgidə Belarus Respublikasının milli pavilyonu fəaliyyət göstərir. Eyni zamanda sərgiyə Belarus Respublikasının həm kənd təsərrüfatı, həm də qida sənayesi sahələrində fəaliyyət göstərən 42 şirkəti qatılıb. Belarus şirkətləri tərəfindən kənd təsərrüfatı texnikaları, qida sənayesinin müxtəlif sahələri üçün avadanlıqlar, qida məhsulları, istehsalın avtomatlaşdırılması üçün həll variantları, qablaşdırma materialları və digər məhsullar təqdim edilir.

Sərgi öz işini mayın 20-də də davam etdirəcək.

# Belarusun Baş naziri Gəncədə törədilən erməni terroru qurbanlarının xatirəsini anıb

Belarusun Baş naziri Roman Qolovçenkonun başçılıq etdiyi nümayəndə heyəti Gəncə şəhərində səfərdədir.



AZƏRTAC xəbər verir ki, qonaqlar Gəncə Beynəlxalq Hava Limanında qarşılanıblar.

Roman Qolovçenkonun başçılıq etdiyi nümayəndə heyəti Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin raket atəşinə tutduğu əraziyə baş çəkib.

Qonaqlar ermənilər tərəfindən Gəncə şəhərində törədilən terror hadisələri nəticəsində şəhid olan mülki şəxslərin ruhuna hörmət əlaməti olaraq əraziyə gül dəstələri düzüblər.

Məlumat verilib ki, Azərbaycanın ikinci böyük şəhəri Gəncə 2020-ci il 4, 5, 8, 11 və 17 oktyabr tarixlərdə Ermənistanın raket və ağır artilleriya hücumlarına məruz qalıb. Ümumilikdə bu dəhşətli terrorlar nəticəsində 26 nəfər həlak olub, 175 nəfər yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Eyni zamanda Azərbaycanın digər böyük şəhəri olan Bərdədə törədilmiş terror nəticəsində 29 nəfər həlak olub, 112 nəfər yaralanıb.

Ermənistan hakimiyyətinin tapşırığı əsasında təkcə Gəncə və Bərdə deyil, eyni zamanda Yevlax, Beyləqan, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Xızı və digər şəhər və rayonlarımız ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulub. Bu hərbi təcavüzlər nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla, 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb.

# Gəncədə Azərbaycan və Belarus müəssisələri arasında sənədlər imzalanıb

Gəncə şəhərinə səfər edən Belarusun Baş naziri Roman Qolovçenko "Gəncə avtomobil zavodu" İstehsalat Birliyində olub.



AZƏRTAC xəbər verir ki, qonaqları qarşılayan Birliyin Müşahidə Şurasının sədri Xanlar Fətiyev müəssisənin fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, 2006-cı ildə Prezident İlham Əliyevin Belarus Respublikasına səfəri zamanı bağlanmış ikitərəfli müqavilə əsasında Gəncə avtomobil zavodunda yeni yığım xətləri quraşdırılıb, müəssisədə müxtəlif markalı traktor və MAZ avtomobillərinin istehsalına başlanılıb. Bu günə qədər müəssisədə 8 modeldə 12200-ə yaxın traktor, 8 modeldə müxtəlif modifikasiyalarda 3000-ə yaxın MAZ avtomobili istehsal edilib. Bu avtomobillərin yığımının 30-40 faizini yerli istehsal təşkil edir.

Qonaqların diqqətinə o da çatdırılıb ki, müəssisə 2006-cı ildən başlayaraq Belarusun "Moqilyovtransmaş", "Minsk təkərli dartıcılar" zavodu, "Bobruysk" ehtiyat hissələri və avadanlıqlar istehsalı zavodu, "Qomselmaş", "Belkommunaş" Açıq Tipli Səhmdar cəmiyyətləri ilə sıx əməkdaşlıq edir. Zavodda Belarus şirkətləri ilə birgə əməkdaşlıq çərçivəsində müxtəlif model yük avtomobilləri və traktorlar, taxılyığan kombaynlar, avtokranlar, ağır yük daşıyan dartıcılar, maye qazla işləyən avtobuslar, müasir elektrobusların yığımı həyata keçirilir.

Müəssisə ilə yaxından tanışlıqdan sonra Belarus Respublikasının Baş naziri Roman Qolovçenkonun iştirakı ilə "Gəncə avtomobil zavodu" İB-i və Belarus müəssisələri arasında əməkdaşlıq memorandumu və müqavilə imzalanıb. Traktorların komplektləşdiricilərinin alınması məqsədilə müqaviləni "Gəncə Avtomobil Zavodu" İB-nin direktoru B.Nəbiyev və Minsk Traktor Zavodunun direktoru V.Vovk imzalayıblar.

Sonra Belarusun "Qomselmaş" şirkətinin direktor müavini D.Afanasyev və "Gəncə Avtomobil Zavodu" İB-nin direktoru B.Nəbiyev iki müəssisə arasında niyyət memorandumunu imzalayıblar.

# Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 131-1-ci maddə əlavə edilsin:

**"Maddə 131-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi**

131-1.1. Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin miqdarı qanunla həmin maddələr üçün müəyyən edilmiş xüsusilə külli miqdarın aşağı həddindən artıq olduqda, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin maddələrdən bu Məcəllə ilə müəyyən edilmiş qaydada ekspert tərəfindən nümunənin götürülməsini, qalan hissəsinin isə məhv edilməsini və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsini təmin etmək məqsədilə zəruri tədbirlər görməlidirlər.

131-1.2. Ekspertizanın keçirilməsi üçün təqdim edilmiş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin müvafiq ekspertizası keçirildikdən sonra ekspert həmin maddədən qanunla müəyyən edilmiş xüsusilə külli miqdarının aşağı həddi miqdarında nümunə götürür, bu nümunəni və maddənin qalan hissəsini ayrılıqda qablaşdırır. Ekspert tədqiqatı nəticəsində ekspert həmçinin təqdim edilmiş maddələrin tibbi məqsədlərlə istifadə olunub-oluna bilməməsinə dair rəy verməlidir. Nümunə və həmin maddələrin qalan hissəsi ekspert rəyi ilə birlikdə ekspertiza təyin etmiş şəxsə təqdim edilir.

131-1.3. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələsinə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə nəzarətinin həyata keçirilməsi qaydasında baxılır. Müvafiq vəsatət və təqdimat ekspert rəyi cinayət təqibini həyata keçirən orqana daxil olduğu vaxtdan 10 gündən gec olmayaraq məhkəməyə təqdim edilməlidir.

131-1.4. Bu Məcəllənin 131-1.3-cü maddəsində nəzərdə tutulmuş vəsatətin təmin edilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddələrin qalan hissəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada məhv edilir və ya tibbi məqsədlərlə istifadəsi üçün təhvil verilir.

131-1.5. Nümunələrin götürülməsi, habelə bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddələrin qalan hissəsinin məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məqsədilə müvafiq dövlət qurumuna verilməsi zamanı videoçəkilişdən istifadə edilməklə protokol tərtib olunur. Protokol videoçəkilişi əks etdirən müvafiq məlumat daşıyıcısı ilə birlikdə cinayət təqibi ilə bağlı materiallara əlavə edilir.

131-1.6. Bu Məcəllənin 131-1.2-ci maddəsində nəzərdə tutulmuş nümunələr barədə məsələ cinayət təqibi üzrə icraat başa çatdıqdan sonra bu Məcəllənin 132-ci maddəsində nəzərdə tutulmuş qaydada həll edilir. Cinayət prosesini həyata keçirən orqan iş üzrə yekun qərar çıxararkən nümunələrin məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olduğunu qeyd etməlidir.";

1.2. 442.2.1-ci maddəyə "tətbiq edilməsinə" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə" sözləri əlavə edilsin;

1.3. 446-cı maddə üzrə:

1.3.1. maddənin adına və 446.1-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.3.2. 446.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 446.1.5-ci maddə əlavə edilsin:

"446.1.5. bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddi sübut olan bəzi maddələrdən nümunə götürüldükdən sonra həmin maddələrin qalan hissəsinin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi ilə əlaqədar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı.";

1.3.3. 446.2-ci maddəyə "446.1.3-cü" sözlərindən sonra "və 446.1.5-ci" sözləri əlavə edilsin və həmin maddədən "hər hansı" sözləri çıxarılsın;

1.3.4. aşağıdakı məzmunda 446.2.9-1-ci maddə əlavə edilsin:

"446.2.9-1. bu Məcəllənin 131-1.1-ci maddəsində nəzərdə tutulmuş maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olan miqdarı, saxlanılan nümunənin miqdarı, həmin maddələrin növü və digər xüsusi əlamətləri, ekspertin təqdim edilmiş maddələrin tibbi məqsədlərlə istifadə olunub-oluna bilməməsinə dair rəyi;";

1.3.5. 446.2.10-cu maddəyə "tətbiq edilməsinin" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinin və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinin" sözləri əlavə edilsin;

1.3.6. 446.3-cü maddəyə "tətbiq edilməsi," sözlərindən sonra "maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.4. 447-ci maddə üzrə:

1.4.1. maddənin adına və 447.1-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.4.2. aşağıdakı məzmunda 447.4-1-ci maddə əlavə edilsin:

"447.4-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri üzrə qapalı məhkəmə iclasında hakim, məhkəmə iclasının katibi, vəsatət vermiş şəxs, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya müvafiq prokuror, təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi, habelə hakimin zəruri hesab etdiyi digər şəxslər iştirak edirlər.";

1.4.3. 447.5-ci maddədə "və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi məsələləri ilə bağlı məhkəmə iclasına ifadələr," sözləri ", prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələləri ilə bağlı məhkəmə iclasına" sözləri ilə əvəz edilsin;

1.4.4. 447.6-cı maddədə "447.3-cü maddəsində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi" sözləri "447.3-cü və ya 447.4-1-ci maddələrində göstərilən şəxslərin istintaq hərəkətinin məcburi aparılması, prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri ilə əvəz edilsin;

1.4.5. 447.7-ci maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.5. 448-ci maddə üzrə:

1.5.1. maddənin adına, 448.1-ci və 448.1.1-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin;

1.5.2. 448.1.2-ci və 448.4-cü maddələrə "tətbiq edilməsinə" sözlərindən sonra ", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsinə və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsinə" sözləri əlavə edilsin;

1.5.3. aşağıdakı məzmunda 448.4-1-ci və 448.6-1-ci maddələr əlavə edilsin:

"448.4-1. Hakim maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələlərinə dair vəsatətin təmin edilməsi barədə qərar qəbul etdikdə, qərarda həmin maddələrin məhv edilməli və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməli olduğunu qeyd etməlidir.";

"448.6-1. Maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi məsələsi ilə bağlı hakimin qərarının surəti həmin qərar çıxarıldıqdan sonra 3 (üç) gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsə, onun müdafiəçisinə və ya qanuni nümayəndəsinə, vəsatət təmin edildikdə isə həmçinin maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsini və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsini icra etməli olan müvafiq dövlət orqanının (qurumunun) rəhbərinə göndərilir.";

1.6. 449.3.6-cı və 454-cü maddələrə "tətbiq edilməsi" sözlərindən sonra", maddi sübut olan bəzi maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2022-ci il*

# "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 131-1.4-cü maddəsinə uyğun olaraq, cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla beş ay müddətində müəyyən etsin;

1.2. "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

2. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 (I kitab), maddə 565, № 12, maddə 1424) 2-ci hissəsinin beşinci abzasına "156-1.1-ci" sözündən əvvəl "131-1.4-cü maddəsində," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2022-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2; Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 449-VIQD nömrəli və 2022-ci il 25 fevral tarixli 487-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 206-cı maddə üzrə:

1.1.1. maddənin adında, dispozisiyasında və "Qeyd" hissəsində "şəxsi istehlak miqdarında" sözləri "az miqdarda" sözləri ilə əvəz edilsin;

1.1.2. "Qeyd" hissəsinin mətni birinci bənd hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci bənd əlavə edilsin:

"2. Bu maddədə "az miqdarda" dedikdə, narkotik vasitələrin və psixotrop maddələrin müvafiq qanunla müəyyən edilmiş xeyli miqdarından aşağı miqdar başa düşülür.";

1.2. 208-ci maddənin dispozisiyasında ", yetişdirilməsinə və ya onların (onların hissələrinin) toplanılmasına" sözləri "və ya yetişdirilməsinə" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun narkotik vasitələrin və psixotrop maddələrin xeyli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2022-ci il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894; Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 453-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 99-4.5-ci maddədə "214-220, 233" rəqəmləri "206.2-206.4, 214-220, 233, 234, 237, 240" rəqəmləri ilə əvəz edilsin;

1.2. 206-cı maddə üzrə:

1.2.1. 206.2-ci maddədə "təsirli" sözü "təsir edən" sözləri ilə əvəz edilsin;

1.2.2. 206.3-cü maddədə "206.1 və ya 206.2-ci" sözləri "206.1-206.2-ci" sözləri ilə əvəz edilsin;

1.3. 234-cü maddə üzrə:

1.3.1. 234.1-ci maddədə "şəxsi istehlak miqdarından artıq" sözləri "xeyli" sözü ilə əvəz edilsin;

1.3.2. aşağıdakı məzmunda 234.1-1-ci maddə əlavə edilsin:

"234.1-1. Bu Məcəllənin 234.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda törədildikdə -

üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.3.3. 234.4.3-cü maddənin sonunda tire işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 234.4.4-cü maddə əlavə edilsin:

"234.4.4. kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə -";

1.3.4. aşağıdakı məzmunda 234.4-1-ci maddə əlavə edilsin:

"234.4-1. Bu Məcəllənin 234.1-234.4-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.3.5. "Qeyd" hissəsinin 2-ci bəndində "şəxsi istehlak miqdarından artıq və külli" sözləri "xeyli, külli və xüsusilə külli" sözləri ilə, "xeyli və külli" sözləri "xeyli, külli və xüsusilə külli" sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 235.5-ci maddə əlavə edilsin:

"235.5. Bu Məcəllənin 235.1-235.4-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

on ildən on yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.5. 237-ci maddə üzrə:

1.5.1. 237.1-ci maddədə ", yetişdirmə və ya onları (onların hissələrini) toplama" sözləri "və ya yetişdirmə" sözləri ilə əvəz edilsin;

1.5.2. aşağıdakı məzmunda 237.3-cü maddə əlavə edilsin:

"237.3. Bu Məcəllənin 237.1 və 237.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.6. 240-cı maddə üzrə:

1.6.1. aşağıdakı məzmunda 240.3-1-ci maddə əlavə edilsin:

"240.3-1. Bu Məcəllənin 240.1, 240.2 və 240.3-cü maddələrində nəzərdə tutulmuş əməllər güclü təsir edən maddələrə münasibətdə xüsusilə külli miqdarda törədildikdə -

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

1.6.2. "Qeyd" hissəsinin 1-ci bəndinə "külli" sözündən sonra "və xüsusilə külli" sözləri əlavə edilsin.

**Maddə 2.** Keçid müddəaları

2.1. Bu Qanunun 1.3.1-ci, 1.3.4-cü, 1.3.5-ci, 1.4-cü, 1.5-ci maddələri narkotik vasitələrin və ya psixotrop maddələrin xeyli və xüsusilə külli miqdarını, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

2.2. Bu Qanunun 1.6-cı maddəsi narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2022-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 516-VIQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 516-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndinə uyğun olaraq, narkotik vasitələrin və ya psixotrop maddələrin xeyli və xüsusilə külli miqdarını, habelə prekursorların və qanunsuz kultivasiya edilən tərkibində narkotik maddələr olan bitkilərin xüsusilə külli miqdarını müəyyən edən Azərbaycan Respublikası qanunlarının layihələrini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2. həmin Məcəllənin 240-cı maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinə uyğun olaraq, narkotik vasitələrə və ya psixotrop maddələrə aid olmayan güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən Azərbaycan Respublikası Qanununun layihəsini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 516-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 may 2022-ci il*

# Bakıda "Prioritet qlobal məsələlər üzrə multikultural perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib

Mayın 19-da Bakıda G20 Dinlərarası Forum regional hazırlıq iclası çərçivəsində "Prioritet qlobal məsələlər üzrə multikultural perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, konfransda Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik şurasının sədri Kamal Abdullayev, G20 Dinlərarası Assosiasiyasının vitse-prezidenti, Dünya Dinlərinin Dialoq İnkişafının İcraçı direktoru, Corctaun Universiteti Berkli Mərkəzinin Din, Sülh və Dünya İşləri üzrə baş əməkdaşı Ketrin Marşal, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktoru Rəvan Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə beynəlxalq konfransın konsepsiyası və məqsədləri haqqında məlumat verilib.

Bildirilib ki, son bir neçə ildə G20 Dinlərarası Forum Assosiasiyası (IF20) ardıcıl olaraq G20 Zirvə görüşləri (Avstraliya, Türkiyə, Çin, Almaniya, Argentina, Səudiyyə Ərəbistanı, İtaliya, bu il isə İndoneziya) və G20 Dinlərarası forumlar təşkil edib. IF20 ümumilikdə G20 prosesinə daxil edilə bilən, eyni zamanda, fəaliyyət üçün əlavə siyasət anlayışı və tərəqqini təmin edəcək bir sıra maraqlı dini tərəfləri bir araya gətirə biləcək konkret tövsiyələri toplamaq üçün regional bazada hazırlıq iclasları keçirilib.

Qeyd olunub ki, bu il İndoneziya ev sahibi olduğuna görə müsəlman dünyasına aid məlumatlar xüsusi əhəmiyyət kəsb edəcək. Builki tədbirə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin multikultural təcrübəsindən və əlaqələrindən, həmçinin Qafqaz Müsəlmanları İdarəsi ilə mühüm tərəfdaşlıq imkanlarından istifadə edərək Azərbaycanın yerləşdiyi region və G20 ölkələri ilə sıx əlaqələrə malik Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Pakistan və digər ölkələrdən ekspertlər dəvət ediləcək.

Panellərdə əsasən sülh quruculuğu, sülhməramlılıq və sabitlik sahələrində dinin rolu, tolerantlıq və multikulturalizm: regional və dini perspektivlər, COVID-lə mübarizədə dinin rolu üzrə regional perspektivlər mövzusunda müzakirələr aparılacaq.

Tədbirdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə dünyada sülhün və sabitliyin qorunmasında, inkişafında dinin və din xadimlərinin roluna əsaslanan mötəbər tədbirin multikultural dəyərlər ölkəsi Azərbaycanda keçirilməsini yüksək dəyərləndirib və forumun işinə uğurlar arzulayıb.

Bildirilib ki, müqəddəs kitabımız "Qurani-Kərim"də müxtəlifliyimizin bir-birimizi daha yaxşı tanımağımıza, yaxın olmağımıza xidmət etdiyi buyurulur. Qlobal problemlərin həlli üçün bəşəriyyətin dini-mənəvi dəyərlərə söykənməsi zəruridir. Sülh şəraitində dinc birgəyaşayış, qarşılıqlı anlaşma mədəniyyəti, insan qardaşlığı Allahın buyruğudur. Lakin təəssüf ki, real həyatda dindən siyasi məqsədlər üçün sui-istifadə halları ilə rastlaşırıq. Ksenofobiya təzahürləri və nifrət çağırışları cəmiyyətlərin, dövlətlərin daxili sabitliyini pozur, böhran, qarşıdurma və nifaq yaradır. Müasir dövrümüzdə təcavüzə və zorakılığa təhrik edən nifrət çağırışları bəşəri təhlükəyə çevrilərək soyqırımı cinayətlərinə gətirib çıxarmaqdadır. Dini zəmində qarşıdurmaya təşviq edən nifrət çağırışlarının əyani sübutu son günlərdə İsveç və Danimarkada "Qurani-Kərim"in yandırılması cəhdləridir ki, bu hərəkət hər bir sağlam düşüncəli cəmiyyət tərəfindən ciddi şəkildə qınanmalıdır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri söz azadlığı və din pərdəsi altında hər hansı radikalizm təzahürlərini, nifrətə sövq edən, böhranların yaranmasında və münaqişələrin alovlanmasında dindən istifadə edən ekstremizmi, habelə antisemitizm, islamofobiya və xristianofobiya, xüsusilə də dinlərin müqəddəs məkanları, dəyərləri və atributlarının təhqir olunması hallarını, hər hansı bir dinin ardıcıllarına qarşı zorakılıq və terror aktlarını qətiyyətlə pisləndiyini deyib.

Qeyd edilib ki, hazırda təhlükə dindən deyil, dinin siyasi məqsədlərlə sui-istifadəsindən irəli gəlir. Odur ki, dini icmaların müqəddəs saydıqları məqamlara qarşı hər hansı həqarətli hərəkətlər sanksiyaya məruz qalmalı, dindən sui-istifadə edən ekstremizmi rədd edən dəyərlər fəal şəkildə inkişaf etdirilməlidir.

Azərbaycan xalqının və dövlətinin dünyada insan cəmiyyətləri arasında həmrəylik və qardaşlıq bağlarının möhkəmləndirilməsi yönündə bütün səmimi təşəbbüsləri dəstəklədiyini deyən Allahşükür Paşazadə bildirib ki, tarixən formalaşmış tolerantlıq ənənələri ilə tanınan, etnik və dini müxtəlifliyi milli sərvəti kimi dəyərləndirilən çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda multikultural dəyərlər və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Azərbaycan Prezidenti İlham Əliyevin elan etdiyi Multikulturalizm, İslam Həmrəyliyi illəri, müəllifi olduğu mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" məhz bu məramlara - dünyada insan həmrəyliyinə xidmət edir. Dini liderlərin I və II Ümumdünya sammitlərinə, mədəniyyətlərarası dialoqa dair mötəbər forumlara evsahibliyi etmiş Azərbaycanda Böyük İyirmilik platformasında Dinlərarası Forum toplantısının keçirilməsi ölkəmizin multikultural təcrübəsinə verilən ali dəyərin təzahürüdür.

Vurğulanıb ki, Azərbaycanda dini-mədəni müxtəlifliyin harmoniyasına istinad edən cəmiyyət quruculuğunun təməli "Yüksək tolerantlıq yüksək mədəniyyətin təzahürüdür" təbirinin müəllifi - Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Bu uğurlu siyasi kursun davamçısı Prezident İlham Əliyev multikulturalizmi "Azərbaycanda həm həyat tərzi, həm də dövlət siyasəti" kimi dəyərləndirərək onu dövlət siyasəti səviyyəsində bərqərar edib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva dünya miqyasında multikulturalizmin təbliği sahəsində unikal fəaliyyəti ilə Azərbaycanın sivilizasiyalararası dialoq və əməkdaşlıq istiqamətində beynəlxalq müstəvidə söz sahibinə çevrilməsinə xidmət etməkdədir.

Qeyd edilib ki, 2020-ci ildə Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, şanlı Ordumuzun rəşadəti sayəsində 30 ilə yaxın davam edən işğala son qoyub, dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünü bərpa edib. Bu zəfərin qazanılmasında Azərbaycan xalqının öz lideri ətrafında sıx birləşməsi, xalq-dövlət birliyi, multikultural həmrəyliyimiz həlledici əhəmiyyət kəsb edib. İkinci Qarabağ müharibəsində döyüşlərdə iştirak edən, müsəlman, yəhudi, xristian olmasından asılı olmayaraq, hər bir qəhrəman azərbaycanlı rəşadətlə döyüşüb, bəziləri qazi olub, yaxud şəhadətə yüksəliblər.

Azərbaycandakı dini konfessiya rəhbərləri 44 günlük müharibə dövründə hər zamankı kimi yenə də bir yerdə olub, dünyaya xalqımızın haqq səsini çatdırıblar.

Beləliklə, multikultural ruhlu vətənpərvərliyin bəhrəsi ümummilli Zəfərimiz olub.

Çıxışının sonunda QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə Ermənistanı təcavüzkarlığa səsləyən nifrət çağırışlarına, revanşizm ideyalarına son qoymağa, sülhə və mehriban qonşuluğa dəvət edib, multikulturalizm ideyalarının dünyanın və bəşəriyyətin ümumi sərvətlərindən biri kimi qorunmalı, inkişaf etdirilməli olan, mühüm dünya problemlərinin həllində çıxış nöqtəsi kimi dəyərləndirib.

Tədbirdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik şurasının sədri Kamal Abdullayev bildirib ki, bu gün Azərbaycan mültikulturalizminin təntənəsini təmin edən başlıca səbəb xalqımızın, xüsusən onun qabaqcıl nümayəndələrinin - alimlərinin, ədiblərinin və sənətkarlarının əsrlər boyu bu ideyalarla yaşaması, onu xalq arasında yaradıcılıqları vasitəsilə təbliğ etməsi ilə bağlıdır. Azərbaycan multikulturalizmi cəmiyyətin tərbiyəedici xüsusiyyətini saxlayaraq, hətta ateizmin dövlət səviyyəsində təbliğ olunduğu bir dövrdə, yəni, sovet hakimiyyəti illərində də öz funksiyasını qoruyub saxlamışdır.

Bildirilib ki, azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq, mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 28 fevral tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilib, 2014-cü il 15 may tarixli sərəncamı ilə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 yanvar tarixli sərəncamı ilə 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilib.

Tədbirdə çıxış edən G20 Dinlərarası Assosiasiyasının vitse-prezidenti, Dünya Dinlərinin Dialoq İnkişafının İcraçı direktoru, Corctaun Universiteti Berkli Mərkəzinin Din, Sülh və Dünya İşləri üzrə baş əməkdaşı Ketrin Marşal çıxışında bildirib ki, Azərbaycanda belə bir tədbirin keçirilməsi həm ölkə, həm də region üçün mühüm amildir.

"Biz mərkəzimiz vasitəsilə Qafqaz Müsəlmanları İdarəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə fəal əməkdaşlıq qurmuşuq və bu istiqamətdə tərəqqini görürük", - deyə Ketrin Marşal qeyd edib.

Bildirilib ki, beynəlxalq proses bu istiqamətdə uzun illərdir həyata keçirilir. Lakin 2008-ci il ümumdünya maliyyə böhranından sonra bu proses daha da sürətlənib və Böyük İyirmilik dünyanın nəhəng iqtisadiyyatları ilə Avropa İttifaqını bir araya gətirib. Burada əsas məqsəd böhran məsələlərini həll etməkdir. Həmçinin Böyük İyirmiliyin üzvü olan hər bir ölkə BMT-nin Davamlı İnkişaf Gündəliyini icra etməkdədir. Beləliklə, bir çox qruplarda biznes, əmək hüquqları, qadın haqları, şəhərsalma, o cümlədən dini məsələlər həmin ölkələr tərəfindən müzakirə edilir. Aydın görünür ki, dini məsələlərin müzakirəsi ildən-ilə daha çox əhəmiyyət kəsb edir. Belə ki, məhz bu platforma vasitəsilə bir çox ölkələr daxili, yaxud regional dini məsələləri müzakirəyə çıxarır və onun həllinə nail olmağa çalışırlar. Bu müzakirələrin iki əsas məqsədi var: Birincisi, əsaslı tövsiyələrin hazırlanmasına nail olmaqdır. İkincisi isə, dini mesajların yayılması üçün bu platformanın imkanlarından istifadə etməkdir.

Çıxışının sonunda forumun işinə uğurlar arzulayan Ketrin Marşal bu il də vacib müzakirələrin aparılacağına və tövsiyələrin hazırlanacağına ümidvar olduğunu deyib.

Konfransda çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, qlobal miqyasda multikultural perspektivlərin müzakirəsi və keçirilməsi İndoneziyada nəzərdə tutulmuş G20 Dinlərarası Forumu Regional İclasının hazırlıq konfransı indi Azərbaycanda təşkil olunub və ölkəmiz belə bir mötəbər tədbirə evsahibliyi edir.

O bildirib ki, Prezident İlham Əliyev tərəfindən "Bakı Prosesi" təsis olunduqdan sonra ölkəmiz Bakı Beynəlxalq Humanitar Forum, Dinlərarası Beynəlxalq Forum, Dünya Dini Liderlərinin Bakı Sammiti kimi tədbirlərə evsahibliyi edib. Bütün bunlar göstərir ki, həqiqətən də Azərbaycan dünyada dinlərarası dialoqa, sülh və inkişafa töhfə verməyə çalışır.

Hazırda dünyada baş verən bir çox münaqişələrin din və milli mənsubiyyətə əsaslandığını vurğulayan icraçı direktor bildirib ki, Azərbaycan isə tarixən və bu gün də mürəkkəb geosiyasi məkanda yerləşib. Ona görə də bu cür dialoq platformalarının yaradılması həm regionun, həm də bəşəriyyətin inkişafı üçün çox vacibdir. Konfrans həm də yeni layihələrin yaradılması və müştərək məqsədlərin istifadəsi üçün güclü təkandır.

Sonra beynəlxalq konfrans işini panel iclasları ilə davam etdirib.

## Şeyxülislam Allahşükür Paşazadə multikultural perspektivlərə dair beynəlxalq konfransın iştirakçıları ilə görüşüb

Xəbər verdiyimiz kimi, mayın 19-da Bakıda G20 Dinlərarası Foruma regional hazırlıq iclası çərçivəsində "Prioritet qlobal məsələlər üzrə multikultural perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə konfrans iştirakçıları ilə görüşüb.

Tədbirdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla, G20 Dinlərarası Forum Assosiasiyasının prezidenti, Beynəlxalq Hüquq və Din Araşdırmaları Mərkəzinin təsisçi direktoru Koul Durham (ABŞ), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Milli Məclisin deputatları və digər rəsmi şəxslər iştirak ediblər.

Tədbirdə çıxış edən Şeyxülislam Allahşükür Paşazadə konfransda iştiraklarına görə elm və ictimai xadimlərə təşəkkürünü bildirib.

Azərbaycanın multikultural ənənələrindən danışan QMİ sədri ölkəmizin multikultural ənənələr diyarı, dünyaya özünün tolerant həyat modelini təqdim edən qabaqcıl dövlət olduğunu qonaqların diqqətinə çatdırıb. Şeyxülislam həmçinin Azərbaycanda multikulturalizmin dövlət siyasəti kimi həyata keçirildiyini və dövlət başçısının bu dəyərli ideyanın qlobal müstəvidə fəal müdafiəçisi olduğunu qeyd edib.

"Din xadimləri olaraq bu prosesə öz töhfəmizi veririk. Alternativi olmayan dinc birgəyaşayış, sülh, əmin-amanlıq, tərəqqi formulu olan multikultural həyat tərzimizlə fəxarət duyuruq və bunu bütün dünyaya təqdim etmək fürsətindən məmnunuq. Əminəm ki, "Prioritet qlobal məsələlər üzrə multikultural perspektivlər" mövzusunda keçirilən bugünkü konfrans dünyada sülh və qarşılıqlı anlaşma mühitinin təmin olunması işinə öz layiqli töhfəsini verəcək", - deyə Şeyxülislam Allahşükür Paşazadə vurğulayıb.

ABŞ-ın Stirling Fondunun prezidenti Ed Rou və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktoru Rəvan Həsənov çıxışlarında "Prioritet qlobal məsələlər üzrə multikultural perspektivlər" mövzusunda beynəlxalq konfransın məhsuldar olduğunu və uğurla keçdiyini diqqətə çatdırıblar.

Qəbuldan sonra qonaqların şərəfinə ziyafət verilib.

Xatırladaq ki, beynəlxalq konfransın təşkilatçısı Qafqaz Müsəlmanları İdarəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, G20 Dinlərarası Forum Assosiasiyası və ABŞ-ın Stirling Fondudur.

## Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ədliyyə naziri Fikrət Məmmədov mayın 19-da Şəmkir regional ədliyyə idarəsində Şəmkir, Gədəbəy rayonlarından və digər bölgələrdən olan vətəndaşların qəbulunu keçirib.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək onların ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərinə baxılıb, xüsusilə müharibə iştirakçılarının və şəhid ailələrinin qayğılarına həssaslıqla yanaşılıb, qaldırılan məsələlərin bəzilərinin yerində həlli ilə bağlı tədbirlər görülüb, digərləri isə araşdırılması üçün nəzarətə götürülməklə nazirliyin qəbulda iştirak edən məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri onların müraciətlərinə daim diqqət və həssaslıqla yanaşılmasına, yerlərdə qəbulların keçirilməsi ilə bağlı yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

* * *

Mayın 19-da mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (QMKİDK) sədri Rövşən Rzayev Mingəçevirdə Mingəçevir və Yevlax şəhərlərindən olan vətəndaşları qəbul edib.

Qəbulda Mingəçevir və Yevlax şəhərlərində yaşayan vətəndaşlar iştirak ediblər ki, onların da əksəriyyəti həmin ərazilərdə məcburi köçkün kimi məskunlaşan şəxslər olub. Müraciətlərdə dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, müvəqqəti yaşayış sahələrinin təmiri, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq və Böyük Qayıdış məsələləri üstünlük təşkil edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı abadlıq, quruculuq və bərpa işləri görüldüyü, Birinci vitse-prezident Mehriban Əliyevanın bu kateqoriyadan olan insanlara xüsusi diqqət və qayğı göstərdiyi diqqətə çatdırılıb. Bildirilib ki, məcburi köçkünlərin yeni mənzillərlə təminatı bundan sonra işğaldan azad olunmuş ərazilərdə həyata keçiriləcək. Eyni zamanda, doğma yurda qayıdacaq məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi üçün komitə tərəfindən yerli və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilir.

Qəbul zamanı vətəndaşların qaldırdıqları məsələlərin bir qismi yerində həll olunub. QMKİDK sədri müraciətlərdə qaldırılan məsələlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib.

# Azərbaycanın mövqeyi qətiyyətli, aydın və konstruktivdir

## Öhdəliklərini yerinə yetirməməsi və razılaşmaları sabotaj etməsi isə Ermənistana yenidən baha başa gələ bilər

İkinci Qarabağ müharibəsi regionda yeni reallıqlar yaratmaqla yanaşı, Azərbaycanın bölgədə və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirən hadisə oldu. Savaşa qədər regionda aparıcı mövqeyi ilə fərqlənən, dünyada isə söz sahibi olan Azərbaycan indi beynəlxalq münasibətlərdə daha böyük ehtiram göstərilən dövlətdir. Şuşada beynəlxalq tədbirlərin keçirilməsi, Azərbaycana gələn xarici rəsmi nümayəndə heyətlərinin Qarabağa səfər etmələri göstərir ki, dünya xalqımızın qələbəsini və regionun yeni reallıqlarını tam qəbul edir.

### İrəvan yeni reallığa uyğun davranmağa məhkumdur

Artıq Qarabağ problemi başa çatıb, Azərbaycan ərazi bütövlüyünü bərpa edib, regiona yeni reallıqlar hakimdir. İndi 30 il əvvəlki dövr deyil, zaman Azərbaycanın xeyrinə işləyir. Şərtləri Azərbaycan diktə edir və bundan sonra da belə olacaq. Müharibədə məğlub olmuş Ermənistan isə yaranmış yeni vəziyyətə uyğun davranmağa məhkumdur. Bu reallıqlardan irəli gələrək İrəvanın üzərinə götürdüyü öhdəliklər üçtərəfli bəyanatlarda, Moskva, Soçi və Brüssel razılaşmalarında öz əksini tapıb. Münasibətlərin normallaşdırılması Ermənistanın bu öhdəlikləri yerinə yetirməsindən keçir.

Ötən ilin dekabrından Avropa İttifaqının vasitəçiliyi ilə start götürən "Brüssel prosesi"nin də məqsədi üçtərəfli bəyanatlarda nəzərdə tutulmuş məsələlərin reallaşması, münasibətlərin normallaşması və sülhün əldə olunmasıdır. Azərbaycanın münasibətlərin normallaşdırılması ilə bağlı təklifləri konstruktivdir. Təsadüfi deyil ki, Brüssel formatında aparılan müzakirələrdə Avropa İttifaqının ortaya qoyduğu mövqe də Azərbaycanın regionda təhlükəsizliyin və rifahın təmin edilməsinə hesablanmış təşəbbüsləri ilə uzlaşır. Aİ hesab edir ki, artıq gələcəyə baxmaq, yeni reallıqlar çərçivəsində münasibətləri normallaşdırmaq lazımdır. Qurumun Azərbaycan və Ermənistan arasında sərhədlərin demarkasiyası və delimitasiyasına, iki ölkə arasında sülh müqaviləsinin hazırlanmasına, nəqliyyat-kommunikasiya xətlərinin açılmasına verdiyi dəstək, bu məsələləri daim diqqətdə saxlaması da bunu təsdiq edir.

### Azərbaycan nümunə ortaya qoyur

Azərbaycanın qətiyyətli və haqlı mövqeyi Ermənistanı yeni reallıqlara uyğun mövqe qoymağa məcbur edir. Çünki Azərbaycanın münasibətlərin normallaşdırılması ilə bağlı təşəbbüsləri həm də beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Ona görə bir müddət əvvəl Bakının irəli sürdüyü prinsiplərə Ermənistanın etiraz etməyə bəhanəsi qalmadı.

Digər tərəfdən, Azərbaycan münasibətlərin normallaşdırılmasına xidmət edən fəaliyyət nümunəsi ortaya qoyur. Aprelin 6-da keçirilmiş Brüssel görüşünün nəticələrinə uyğun olaraq respublikamız dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə milli komissiyanın tərkibini müəyyən edib, danışıqlara hazır olduğunu vurğulayıb.

Bununla bağlı Ermənistanın mövqeyi ilk vaxtlarda müəyyən nikbinlik yaratsa da, görünən odur ki, kapitulyant dövlət hələ də xəstə təfəkkürdən və xislətdən əl çəkə bilmir. İndiyədək yalnız deklarativ bəyanatlarla kifayətlənən Ermənistanın münasibətlərin normallaşdırılması ilə bağlı konkret addımlar atmaqdan uzaq olması, üçtərəfli razılaşmalara əməl etməkdən boyun qaçırmağa başlaması başqa cür düşünməyə imkan vermir.

Məsələn, Azərbaycan işçi qrupunu vaxtında yaratsa da, Ermınistan tərəfindən real fəaliyyət ortaya qoyulmur. Aprelin 6-da Brüsseldə əldə olunan razılaşmaya görə, müvafiq görüşlər keçirilməli idi. Ermənistan sərhədlərin delimitasiyasına dair ilk görüşün iki ölkənin sərhədində keçirilməsi barədə təklif irəli sürmüşdü, Azırbaycan da bu təklifi dəstəkləmişdi. Amma Ermənistan artıq aprelin 29-na razılaşdırılmış görüşü ləğv etdi, daha sonra isə 7-11 may tarixlərində sərhəddə yeni görüşün keçirilməsi barədə razılaşmanı icra etmədi. Bununla da Ermənistan razılaşdırılmış görüşdən boyun qaçırdı.

Bu barədə Litva Prezidenti ilk birlikdə mətbuata bəyanatında məlumat verən Prezident İlham Əliyev bildirib ki, Ermənistan hökumətinin bu addımları yaranan müəyyən etimadı pozur: "Aprelin sonuna qədər görüşə hazır olduğumuzla bağlı Avropa İttifaqı Şurasının prezidentinin iştirakı ilə söz vermişdiksə, biz buna sadiq idik. Lakin, biz eyni məsuliyyəti Ermənistan tərəfindən də görməliyik. Başqa sözlə, bizdə müəyyən nikbinlik olsa belə, Ermənistan hökumətinin bu cür manevrləri və çox qəribə addımları, əslində, yaranan müəyyən etimadı pozur".

### Ermənistan aldığı dərsdən düzgün nəticə çıxarmaq istəmir

Ermənistan hələ İkinci Qarabağ müharibəsindən əvvəl aparılan danışıqlar prosesində də özünü qeyri-konstruktiv aparırdı, nəticədə isə Azərbaycan güc yolu ilə, "dəmir yumruqla" onu işğal etdiyi ərazilərimizdən çıxardı. Bu müharibədə ermənilər elə bir dərs aldılar ki, tarix boyu onu unuda bilməyəcəklər.

44 günlük müharibəyə qədərki dövrdə olduğu kimi, yeni reallıqlarda da Ermənistanın yersiz və əsassız iddialarına yer yoxdur və heç vaxt olmayacaq. Amma görünür Ermənistan aldığı dərsdən düzgün nəticə çıxarmaq istəmir. Görünən odur ki, Ermənistan 2020-ci il üçtərəfli bəyanatında əks olunmuş və sonrakı bəyanatlarla bir daha möhkəmləndirilmiş öhdəlikləri, sərhədlərin delimitasiyası və sülh müqaviləsinə dair Avropa İttifaqının vasitəçiliyi ilə əldə olunmuş razılaşmaları pozur. Habelə İrəvan kommunikasiyaları açmaqdan, birinci müharibədə əsir düşmüş minlərlə azərbaycanlının taleyi və kütləvi məzarlıqlar haqda məlumat verməkdən, vaxtilə işğal altında saxladığı ərazilərin minalanması xəritələrini təqdim etməkdən imtina edir, UNESCO-nun Ermənistandakı Azərbaycan tarixi irsinin monitorinqini sabotaj edir, Zəngəzur dəhlizi məsələsini uzadır.

Postmüharibə dövründə Azərbaycanın yürütdüyü siyasət, münasibətlərin normallaşdırılması ilə bağlı mövqeyi sülhpərvərdir və Bakı qarşı tərəfdən eyni mövqenin ortaya qoyulmasını gözləyir. Əks təqdirdə, Ermənistanın Azərbaycanın "dəmir yumruğunun" zərbəsini bir daha hiss etməsi qaçılmaz olacaq. 44 günlük müharibədən nəticə çıxarmaması Ermənistana yenidən baha başa gələ bilər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Mayın 19-u günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Aşağı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutubar. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

## İşğaldan azad edilən ərazilərdə mayın 1-dən 19-dək 950 hektardan çox ərazi mina və partlamamış döyüş sursatından təmizlənib

Nəqliyyat vasitələrinin təhlükəsiz və fasiləsiz hərəkətini təmin etmək məqsədilə yollar Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələri tərəfindən minalardan təmizlənir, abadlaşdırılır, döyüş mövqelərinin və səngərlərin möhkəmləndirilməsi işləri həyata keçirilir. Həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizə yeni təminat yolları çəkilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, azad edilmiş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində mayın 1-dən 19-dək olan müddət ərzində 950 hektardan çox ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 17 min 200 hektardan artıq ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. Piyada əleyhinə 6 mindən çox, tank əleyhinə 2100 ədəddən artıq və 9400 ədəddən artıq partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Minatəmizləmə işlərində əsas səylər azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib. Dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə ümumilikdə 140 kilometrdən artıq yeni təminat yolu çəkilib.



20 May Ümumdünya Arılar Günüdür

# Böyük işin kiçik zəhmətkeşləri

## BMT faydalı həşəratları, xüsusən də arıları qorumaq üçün proqram hazırlayıb

**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 5 il öncə, 2017-ci ilin may ayının 20-nin Ümumdünya Arılar Günü kimi qeyd edilməsinə dair qərar verib.**

Bunun təşəbbüskarı qədimdən arıçılıq ənənələrinə malik olan Sloveniya ölkəsidir. 20 may tarixi təsadüfən seçilməyib. 1734-cü ilin bu günü müasir arıçılığın əsasını qoyan sloven əsilli arıçı və rəssam Anton Yanşa anadan olub.

Mütəxəssislərin fikrincə, bütün kənd təsərrüfatı məhsullarının 75 faizindən çoxunun istehsalı tozlandırıcılardan, o cümlədən arılardan, kəpənəklərdən və digər həşəratlardan, eləcə də bəzi növ quşlardan və hətta yarasalardan asılıdır. İqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi, kənd təsərrüfatında insektisidlərin istifadəsi və bir çox digər mənfi amillər onların mövcudluğunu təhlükə altına alır.

### Davamlı inkişaf məqsədləri

BMT diqqəti təkcə arıların deyil, həm də bütün digər tozlandırıcıların qorunması probleminə cəlb etməyə çalışır və bunlar təkcə həşəratlar deyil, həm də bəzi quşların və yarasaların növləridir. Yeni kənd təsərrüfatı texnologiyalarına baxmayaraq, insan tozlandırıcıların "xidmətləri" olmadan məhsul əldə edə bilməz.

Belə ki, bütün bitki məhsullarının 75 faizinə qədər istehsalı onlardan asılıdır. Lakin öz köməkçilərinin mövcudluğunu təhdid edən də məhz insanın iqtisadi fəaliyyətidir: iqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi, urbanizasiya, meşələrin və çəmənliklərin məhv edilməsi, insektisidlərin istifadəsi bütün dünyada həşəratların sayının azalmasına səbəb olur.

### Təbii tozlandırıcılara alternativ yoxdur

Bu problem tərəvəz, meyvə və taxıl yetişdirmək üçün ənənəvi üsullardan istifadə edən fərdi fermerlər və kiçik kənd təsərrüfatı müəssisələri üçün xüsusilə aktualdır - onlar üçün təbii tozlandırıcılara alternativ yoxdur.



Bu problemlər mütəmadi olaraq BMT-nin Baş Qərargahında və Romada Ümumdünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatında (FAO) keçirilən tematik sessiyalarda müzakirə olunur. FAO-nun baş direktoru Xose Qratsiano da Silvanın dediyinə görə, Ümumdünya Arılar Günü aclıqla mübarizə, ərzaq təminatı, insanlar üçün qidanın keyfiyyətinin yüksəldilməsi və planetin əsas ekosistemlərinin qorunması ilə bağlı böyük işdə arıçılığın, arıların və tozlandırıcıların əhəmiyyətini vurğulamaq üçün bir fürsətdir.

Faydalı həşəratları qorumaq üçün BMT proqram hazırlayıb. Təşkilatın ekspertləri ilk növbədə iri kənd təsərrüfatı istehsalçılarını geniş ərazilərdə monobitkilərin becərilməsindən imtina etməyə və kimyəvi maddələrdən istifadəni məhdudlaşdırmağa çağırır. BMT-də əmindirlər ki, hətta adi bağbanlar da arılara kömək edə bilərlər. Bunun üçün nəinki kənd yerlərində, həm də meqapolislərdə daha çox çiçəkli, balverən bitkilər əkməlidirlər, çünki arılar şəhərlərdə də yaşayırlar.

BMT-nin mənzil-qərargahında "Sərhədsiz Arılar" Qeyri-Hökumət Təşkilatının köməyi ilə bir neçə il əvvəl yaradılmış miniarıxana da var. Həmin arıxana maarifləndirici məqsədlərə xidmət edir. Ümumdünya təşkilatına gələnlər arıçılığın kənd təsərrüfatı, qida istehsalı, ənənəvi tibb və xalq təbabəti üçün əhəmiyyəti haqqında öyrənə bilərlər.

Xatırladaq ki, bir müddət bundan əvvəl BMT-nin Baş Qərargahında qurumun Poçt Administrasiyası tərəfindən hazırlanmış markaların təqdimatı da keçirilib. Bu markaların özəlliyi ondan ibarətdir ki, onlar bal iyi verən kağız üzərində çap olunub.

### Azərbaycanda arıçılıq yeni inkişaf mərhələsində

Azərbaycanda arıçılığın inkişafına dövlət tərəfindən böyük dəstək göstərilir. Prezident İlham Əliyev 2 fevral 2009-cu il tarixdə "Arıçılıq haqqında" qanun imzalayıb. Bu qanun Azərbaycanda arıçılığın təşkilinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə münasibətləri tənzimləyir.

Azərbaycanda bal verən 600-ə qədər bitki növü mövcuddur ki, bunların da təxminən 200-ü nektar və çiçək tozu mənbəyi kimi arıçılığın genişləndirilməsi üçün daha böyük təbii imkanlar yaradır. Bu imkanlar sayəsində arıçılığın inkişaf etdirilməsi kənd əhalisinin gəlirlərinin artmasına və məşğulluğunun təmin edilməsinə töhfə verə bilər.

Ölkədə arıçılığı inkişaf etdirmək məqsədilə son illərdə tədbirlər həyata keçirilib. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun nəzdində Arıçılıq Mərkəzi yaradılıb, habelə Azərbaycan Arıçılar Assosiasiyası təsis edilib. Hazırda damazlıq arıçılıq təcrübəsinin genişləndirilməsi, genofond arıxanaların yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, sərgi-satış yarmarkalarının təşkili və digər istiqamətlərdə məqsədyönlü tədbirlər görülür. Bu tədbirlərin nəticəsi olaraq, arı ailələrinin sayında, bal və digər arıçılıq məhsullarının istehsalında və bal ixracında əhəmiyyətli artım müşahidə edilir.

Böyük zəfərdən sonra torpaqlarımızın işğaldan azad edilməsi həm də arıçılığın inkişafına böyük töhfə verib. Təkcə bu il Kəlbəcər yaylaqlarına 20 mindən çox arı ailəsinin köçürülməsi barədə qərar qəbul olunub. Ötən aylarda bir neçə arıçı ailəsi Kəlbəcərə köçürülüb. Bu da bir daha onu deməyə əsas verir ki, tezliklə işğaldan azad olunmuş ərazilərimizdə arıçılığın inkişafı daha da sürətlənəcək.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarından olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqə keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Həssas əhali qruplarından olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 02 iyun 2022-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 03 iyun 2022-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5038)

***Müsabiqə komissiyası***

*Təkrar*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs "Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan tibbi ləvazimatlar"ın satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: +99412 310 07 70 (daxili: 2011), E-mail: **asalayev@its.gov.az)** ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. ***Ümumprofilli müalicə müəssisələrinin fəaliyyətində istifadə olunan tibbi ləvazimatların satın alınması.***

İştirak haqqı:

LOT-1. 2000.00 (iki min) manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs

**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: "Kapital Bank" ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
4. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.
5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti).
7. İddiaçının tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra **100 (yüz) bank günü** qüvvədə olmalıdır.
8. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən **30 (otuz) bank günü** çox olmalıdır).
9. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.
10. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat (malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır).

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib edilməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Malgöndərənlər tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təkliflərinin açılışına 7 bank günü qalana qədər) **10.06.2022-ci il saat 18:00-a** qədər, tender təklifi və tender təklifinin bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **21.06.2022-ci il saat 15:00-a qədər** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri **22.06.2022-ci il saat 15:00-da** Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında yerləşən "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsində açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul üzrə imtahan suallarını satan şəxslər həbs edilib

**Təhsil sahəsini öz prioritetlərindən biri elan etmiş ölkəmizdə bu istiqamətdə sistemli dövlət proqramları qəbul edilməklə mütərəqqi islahatlar aparılmaqdadır.**

Bununla belə, bəzi hallarda gənclərin qabaqcıl xarici ölkələrin təhsil müəssisələrində təhsil almalarını təşviq edən dövlət siyasətinə uyğun olaraq yaradılmış şəffaf mühitdən sui-istifadə etməklə gənclər arasında sağlam rəqabətə xələl gətirən vəzifəli şəxslərə də təsadüf olunur ki, belə hallara qarşı hüquq-mühafizə orqanları tərəfindən ən sərt mübarizə tədbirləri görülməkdədir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul üçün hüquq verən beynəlxalq səviyyəli imtahan proqramı suallarının qabaqcadan qanunazidd şəkildə ayrı-ayrı şəxslərə satışını təşkil edən şirkət rəhbəri barəsində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən Dövlət Təhlükəsizliyi Xidmətinin aidiyyəti strukturu ilə birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş İdarədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmaqla istintaq aparılır.

Əməliyyat tədbirləri ilə "Uğur İstanbul 2012" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Məmmədov Cahid Sabit oğlunun fərdi qaydada vətəndaşların xaricdə təhsil almasında kömək göstərilməsi ilə məşğul olan Əliyev Şahin Sevindik oğlu və digər şəxslərlə qabaqcadan əlbir olub beynəlxalq səviyyədə fəaliyyət göstərən "College Board" özəl təşkilatının Təhsil Test Xidməti ("Educational Testing Service") üzrə imtahan növü olan "SAT" test-sxolastik qabiliyyət imtahanının (Scholastic Aptitude Test) kommersiya sirri təşkil edən sual-məlumat bazasını nüfuz alveri etməklə külli miqdarda pul vəsaiti müqabilində bu növ imtahanların keçirilməsinə lisenziyası olan Türkiyə Respublikasının İzmir və İstanbul şəhərlərində yerləşən təhsil mərkəzlərindən qanunsuz əldə etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Qeyd edilən qanunsuz hərəkətlərin davamı kimi Cahid Məmmədovun qanunsuz əldə etdiyi həmin sualları direktoru olduğu MMC və Bakı şəhərində fəaliyyət göstərən "Uğur N" MMC adlı digər tədris müəssisəsi, habelə qabaqcadan əlbir olduğu Şahin Əliyev və başqalarının vasitəsi ilə külli miqdarda pul vəsaiti müqabilində Türkiyə və Azərbaycan respublikaları ərazisində ayrı-ayrı şəxslərə satıb yaymasına, bununla da "College Board" təşkilatının və cəmiyyətin təhsil müəssisələrinə qəbulun beynəlxalq səviyyədə müəyyən olunmuş standartlar üzrə şəffaf və obyektiv əsaslarla həyata keçirilməsinin, məxfiçiliyin, rəqabətliliyin və təhsilin effektivliyinin təmin edilməsi ilə əlaqədar hüquqlarına və qanuni mənafelərinə mühüm zərər vurmasına əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış sübutlar əsasında Cahid Məmmədov və Şahin Əliyevin Cinayət Məcəlləsinin 202.1-ci (kommersiya və ya bank sirri olan məlumatları qanunsuz yolla əldə etmə və ya yayma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 312-1.2-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam, hərtərəfli və obyektiv yoxlanılmaqla digər təqsirli şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici ölkələrin təhsil ocaqlarına daxil olmağa maraq göstərən tələbələri və onların valideynlərini bu qəbildən olan qanunazidd hallara qarşı diqqətli olmağa çağıraraq, belə hallarla üzləşən vətəndaşlardan Baş Prokurorluğun "961" Çağrı mərkəzinə və ya Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə məlumat verməlləri xahiş edilir.

# İrəvanda etirazçılar güllələnirlər

## Mitinqlərdə polislərlə yanaşı, oliqarxların cangüdənləri də zorakılıq edir

**Ermənistanda narazılıq və qarşıdurma halları daha da çoxalır, müxalifətlə hakimiyyət arasında ziddiyyətlər getdikcə böyüyür.**

Müxalifətin İrəvanda keçirdiyi etiraz aksiyaları üç həftədən artıqdır davam edir. Etiraz aksiyalarında qırmızı və qara "beretli"lər ayrı-ayrı polis bölməsində xidmət edən hüquq mühafizəçilərindən fərqli olaraq aksiyaçılara qarşı kobud və qeyri-insani davranış sərgiləyirlər. Zorakılıq nümayiş edənlər arasında hökumətyönlü tanınmış oliqarxların cangüdənlərinin olduğu barədə də məlumatlar yayılır.

Ümumiyyətlə, etirazların davam etməsi fonunda paytaxt sakinləri üçün güllə səsləri adi hala çevrilib. Polisin işgəncəsi və zorakılığı nəticəsində etirazlarda xəsarət alaraq ölən 34 yaşlı Manvel Saakyanın yaxınları bildirib ki, üç polis əməkdaşı axşam saatlarında yaşadıqları evə girərək heç bir səbəb gətirmədən Manvelin bölməyə getməli olduğunu deyiblər. Polislər zor tətbiq edərək uşaqların gözü qarşısında onun qollarını qandallayıb bölməyə aparıblar. Ölən şəxsin anası baş nazir Nikol Paşinyana və baş prokuror Artur Davityana müraciət edib: "Görün Ermənistanda nələr baş verir. Ermənistanın daxili işlər nazirinə üzümü tutub deyirəm. Ar olsun sənə və sənin polis əməkdaşlarına!", - deyə narazı vətəndaş bildirib.

Ekspertlər qeyd edirlər ki, müxalifətin başladığı etiraz aksiyaları bir aya kimi davam edərsə, bu, Paşinyan üçün ciddi problemlər yarada bilər. Bundan başqa, diqqət ona yönəlir ki, məhz baş nazirin son 4 il ərzində ölkəyə rəhbərliyi təkcə Qarabağ müharibəsindəki məğlubiyyətlə bitmir. Bu müddətdə Ermənistanda həm iqtisadi, həm də enerji böhranı dərinləşib. Digər tərəfdən, Ermənistandan əhalinin köç prosesi artıq yeni mərhələyə daxil olub.

Görünən isə odur ki, yaranmış vəziyyətdə Paşinyan hakimiyyətdə yerini möhkəmlətmək üçün bütün addımları atacaq və ölkənin tənəzzülü daha da sürətlənəcək. Bu, Ermənistanın durumunu ağırlaşdıracaq ki, elə ictimaiyyət də məhz bundan narazıdır. Belə vəziyyətdə ölkədə hakimiyyətlə xalq arasında uçurumun dərinləşməsi gözlənilir. Bu isə Ermənistanı növbəti vətəndaş qarşıdurmasına sürükləyəcək.

Siyasi proseslərin fonunda Paşinyanın reytinqinin sürətli şəkildə aşağı düşməsi hakimiyyət daxilində gərginlik yaradıb. İqtidar həm mitinqdəki izdihamdan, həm də müxalifət qruplarının birgə fəaliyyət göstərməsindən çox narahatdır. "İravnuk" qəzeti yazır ki, hakimiyyət orqanları xüsusən sosial şəbəkələrdə müxalifətin artan hücumlarından qorxublar. Qeyd olunur ki, baş nazirin durmadan enən reytinqi qarşısında hamıya hazır olmaq və sosial meydanda heç kimə aman verməmək tapşırığı verilib. Əks təqdirdə hamını işdən qovulmaq təhlükəsi gözləyir: "Saxta istifadəçilər Paşinyanın atdığı addımları tərifləməyə başlamalıdır. Ən əsası mümkün variantlarla opponentləri neytrallaşdırmaq, onları gözdən salmaq, inqilaba qədər kim olduqlarını başa salmaq tələb olunur. Bütün bunlar da hökumət üzvlərini özlərindən çıxarır. Çünki onlardan "feyk fabriklər"i doldurmaq və Paşinyanla müxalifət arasında sipər rolunu oynamaq tələb olunur".

Bildirilir ki, sosial şəbəkələrdə mitinqlərə gətirmək üçün insanlara pul paylanıldığı, vilayətlərdən müxtəlif insanların toplandığı, mitinqin Rusiyanın Ermənistandakı səfirliyinin köməyi və hətta maliyyə dəstəyi ilə təşkil edildiyi barədə rəy formalaşdırılır.

Bu arada ölkədə inflyasiyanın kəskin sürətlənməsi də əhəmiyyətli mənfi sosial-iqtisadi nəticələrə gətirib çıxarıb. İnflyasiya şəraitində orta aylıq əməkhaqqının real artımı demək olar ki, 0,4 faizə bərabər olub. İnflyasiya pensiyaçılara və müavinət alanlara ciddi təsir edib, pensiya və müavinətlərin artım tempini aşağı salıb.

Göründüyü kimi, Paşinyanı devirmək istəyən müxalifətin ən böyük arqumentlərindən biri də sosial-iqtisadi tənəzzüldür. Müharibədə məğlubiyyətdən sonra Ermənistanda bu problem etirazların fonunda xüsusilə qabardılır, gündəmə gətirilir. Ölkə hərtərəfli böhran yaşayır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Dendrologiya İnstitutunun baş direktoru

**TOFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvləri tanınmış alim, AMEA-nın müxbir üzvü

**TOFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Dendrologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü

**TOFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynova tanınmış alim, AMEA-nın müxbir üzvü

**TOFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5952
Sifariş 1370
Qiyməti 40 qəpik